# BƏƏ İLƏ STRATEJİ ƏLAQƏLƏR DƏRİNLƏŞİR



Son illərdə Körfəz ölkələri ilə əməkdaşlıq genişləndirilir. BƏƏ ilə münasibətlərin inkişafı bu əməkdaşlıq modelində mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin dekabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə reallaşan səfəri iki ölkə arasındakı dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirilir.

Bu Körfəz ölkəsi ilə strateji tərəfdaşlıq mahiyyəti daşıyan ikitərəfli münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Qarşılıqlı şəkildə həyata keçirilən səfərlər, müzakirə platformalarının genişliyi əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır. İqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar açır.

SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

20 DEKABR ŞƏNBƏ 2025 № 49 (4250) Qiyməti - 60 qəpik www.kaspi.az



## "ASAN MƏKTUB" SOSİAL PROQRAMI 10 YAŞINDA

Dekabrın 18-də "ASAN Məktub" sosial proqramının 10 illiyinə həsr olunan tədbir keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

SƏHİFƏ 2-də



## "GLOBAL MEDİA GROUP"UN 55 ƏMƏKDAŞI TƏLTİF OLUNUB

Təltif olunanlar uzunmüddətli və səmərəli fəaliyyəti, peşəkarlığı, operativ və obyektiv informasiya təminatındakı xidmətləri, eləcə də Azərbaycan milli mətbuatının inkişafına verdikləri töhfələrə görə bu yüksək mükafata layiq görülüblər.

SƏHİFƏ 10-da

## AZƏRBAYCAN TARİXİNİN ƏN BÖYÜK AMNİSTİYA AKTI

# DÖVLƏTİN BAĞIŞLAMAQ İRADƏSİ



Prezident İlham Əliyev tərəfindən irəli sürülən amnistiya təşəbbüsü humanist addım kimi qiymətləndirilir. Bu cür təşəbbüslər Azərbaycan vətəndaşına verilən dəyərin, cəmiyyətdəki birlik və bərabərliyin qorunmasına göstərilən diqqətin daha bir nümunəsidir.

### AMNİSTİYA TƏŞƏBBÜSÜNDƏ ZƏFƏR İZİ

"Konstitusiya və Suverenlik İli" çərçivəsində elan olunan növbəti amnistiya aktı Prezident İlham Əliyev tərəfindən humanizm dəyərlərinin ən ali səviyyədə diqqətdə saxlanıldığını göstərir. Sözügedən amnistiya aktı xüsusi əhəmiyyət daşıyır.

### YENİ BİR İMKAN, YENİ BİR ÜMİD YERİ

Amnistiya təşəbbüsü həyata keçirilən ardıcıl siyasətin davamıdır. Bu addım dövlətin bağışlamaq iradəsini də ortaya qoyur. Törətdiyi əməldən nəticə çıxaran, peşmançılıq hissi keçirən şəxslər üçün yeni bir imkan, yeni ümid yaradır.

SƏHİFƏ 4-də



## RUSİYA ÜÇÜN TƏHLÜKƏLİ PROQNOZ

Qərbdə düşünürlər ki, sanksiyalar Rusiya Federasiyasının iqtisadiyyatına və büdcəsinə ciddi təsir göstərir. Sanksiyalar və neftə tətbiq olunan qiymət həddi Rusiyanın enerji ixracından əldə etdiyi gəlirləri xeyli azaldıb.

SƏHİFƏ 5-də



## PUL YATANDA AZALIR, İŞLƏYƏNDƏ İSƏ ÇOXALIR

Sosial şəbəkələrdə investisiya bazarı ilə bağlı müzakirələr intensivləşib. Bəzi iqtisadçılar əmlak bazarında qiymətlərin enəcəyini, eyni zamanda son aylarda sürətlə bahalaşan qızılın da ucuzlaşacağını proqnozlaşdırırlar.

SƏHİFƏ 6-da

Yaradıcılıq səviyyəsi, istehsal keyfiyyəti və strateji düşüncə

# "HƏR YERİN ÖZÜNƏMƏXSUS HEKAYƏSİ VAR"



CİFFT-in direktoru Aleksandr V.Kammel: "Texnologiya hekayə danışmağı dəstəkləyir, lakin heç vaxt onu əvəz etmir. Son illərdə kinematoqrafiya, səs dizaynı və effektlərdə təsirli irəliləyişlər müşahidə etdik, lakin diqqət çəkən filmlər güclü yaradıcı konsepsiyalar üzərində qurulanlardır".

SƏHİFƏ 7-də



## "ŞPARQALKA"DAN TEXNOLOJİ VASİTƏLƏRƏ KEÇİD ERASI

Hazırda aktuallaşan problemlərdən biri də imtahanlarda texnoloji fırıldaqçılıqdır. Abituriyentlər qəbul imtahanlarında, tələbələr semestr imtahanlarında köməkçi vasitələrə - texnoloji cihazlara müraciət edirlər.

SƏHİFƏ 11-də



## ALMAN KAHISI BAZARA NİYƏ QAYITDI?

Səkkiz ildən sonra Almaniyadan yenidən kahı idxalına başlanılıb. İdxalın əsas səbəbi qış aylarında yaranan çatışmazlıqdır. Mütəxəssislər alman kahısının daha çox restoranlar üçün nəzərdə tutulduğunu deyirlər.

SƏHİFƏ 14-də




"İşçiyə xeyirdir, müdirə ziyan"

SƏHİFƏ 8-də



Sağlam yaşlanmağa xidmət edən mərkəz

SƏHİFƏ 9-da



Gəncləri təhdid edən təhlükə

SƏHİFƏ 12-də



Sosial şəbəkələrdə tibbi məsləhət dalğası

SƏHİFƏ 15-də



Küllərindən doğulan "Fənərbağça"

SƏHİFƏ 16-da



# "ASAN Məktub" 10 yaşında

Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "ASAN Məktub" sosial proqramının 10 illiyinə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

ASAN könüllüləri, sosial qayğıya ehtiyacı olan uşaqlar və digər qonaqların da iştirak etdiyi tədbir "ASAN xidmət" və "Bilim Bakı" mərkəzləri ilə tanışlıqla başlayıb.

Qonaqlara 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti, həmçinin "ASAN xidmət" mərkəzləri və dövlət xidmətlərində tətbiq olunan innovativ həllər barədə məlumat verilib, hazırda Azərbaycanın intellektual məhsulunun 30-dan çox ölkəyə ixrac edildiyi bildirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "ASAN Məktub" ağacındakı məktublardan birini öhdəliyə götürüb.

Səyyar ASAN xidmət avtobusu ilə tanışlıq çərçivəsində diqqətə çatdırılıb ki, əsas məqsəd dövlət xidmətlərinin hər kəs üçün daha rahat, innovativ üsullarla və əlçatan şəkildə təqdim edilməsidir.

Tədbirin rəsmi hissəsi "ASAN Məktub" sosial proqramının 10 illik fəaliyyətinə dair videoçarxın nümayişi ilə başlayıb. Məlumat üçün bildirilib ki, "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" sosial proqramı 3 -14 yaşarası sosial qayğıya ehtiyacı olan uşaqların arzularını reallaşdırmaq, onlara sevinc, diqqət və qayğı bəxş etmək məqsədilə 2015-ci ildən həyata keçirilir. Proqram çərçivəsində bu günədək 56 region üzrə ümumilikdə 10 512 məktuba uyğun arzular gerçəkləşdirilib.

Qonaqlara "Bir qəlbi də sən isit" layihəsi haqqında da məlumat verilib. İndiyədək ölkənin müxtəlif bölgələrində 2 500-dən çox uşağın arzusunun reallaşdırıldığı diqqətə çatdırılıb.

# BƏƏ İLƏ STRATEJİ ƏLAQƏLƏR DƏRİNLƏŞİR



**Son illərdə strateji tərəfdaşlıq mahiyyəti daşıyan ikitərəfli münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Qarşılıqlı şəkildə həyata keçirilən səfərlər, müzakirə platformalarının genişliyi əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır.**

F.ABASOĞLU

Son illərdə Körfəz ölkələri ilə əməkdaşlığın genişləndirilməsi Azərbaycanın xarici siyasət kursunda mühüm istiqamətlərdən birini təşkil edir. Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə münasibətlərin inkişafı bu əməkdaşlıq modelində mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin dekabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə reallaşan səfəri iki ölkə arasındakı dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirilir.

## PREZİDENTİN SƏFƏR GÜNDƏLİYİ

Qeyd edək ki, Prezident İlham Əliyevin səfər çərçivəsində Əbu-Dabidə həmkarı Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub. Tərəflər görüş zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıblar. Sonra İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

## REALLAŞAN QARŞILIQLI SƏFƏRLƏR

Son illərdə strateji tərəfdaşlıq mahiyyəti daşıyan ikitərəfli münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Qarşılıqlı şəkildə həyata keçirilən səfərlər, müzakirə platformalarının genişliyi əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır. İqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar açır.

Xatırladaq ki, Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə altı dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana üç dəfə səfər edib. Səfərlər çərçivəsində ən müxtəlif sahələri əhatə edən çoxsaylı sənədin imzalanması və əldə olunan razılaşmalar əməkdaşlığın strukturu və gələcək birgə hədəflər haqqında geniş təsəvvür yaradır. Ümumilikdə, bu günədək Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 50-dən çox ikitərəfli sənəd imzalanıb.



## STRATEJİ TƏRƏFDAŞLIQ SƏNƏDLƏRİ

Onların arasında 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı imzalanan "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" xüsusilə diqqət çəkir. Məhz bu iki sənəd BƏƏ-Azərbaycan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini təsbit edir. Həmçinin siyasət, iqtisadiyyat, ticarət, enerji və investisiya kimi mühüm sahələrdə əməkdaşlığın genişləndirilməsini təmin edir. Adından da göründüyü kimi, strateji tərəfdaşlıq səviyyəsi hər iki ölkənin qarşılıqlı şəkildə bir-birinə olan etimadını daha da gücləndirir.

## QARŞILIQLI İQTİSADİ MÜNASİBƏTLƏR DƏRİNLƏŞİR

İkitərəfli münasibətlərdə iqtisadi və investisiya sahələri üzrə əməkdaşlıq önəmli yer tutur. Cari ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artaraq 147,49 milyon ABŞ dollarına çatıb. İnvestisiya sahəsində isə Azərbaycan İnvestisiya Holdinqi ilə Əbu-Dabi İnkişaf Holdinqi tərəfindən yaradılmış Birgə İnvestisiya Fondunun fəaliyyəti diqqət çəkir. Hər iki tərəf üçün prioritet elan olunan layihələr məhz bu Fond vasitəsi ilə maliyyələşdirilir. BƏƏ vətəndaşlarının Azərbaycana səfərlərində də artım müşahidə edilir. Bakı ilə Əbu-Dabi, Dubay və Şarja şəhərləri arasında həyata keçirilən birbaşa uçuşlar bu səfərlərin daha rahat reallaşmasına və turizm sektoru üzrə əməkdaşlığın dərinləşməsinə şərait yaradır. Bu il ərzində təxminən 39 min BƏƏ vətəndaşı Azərbaycana səfər edib. Ölkəmizin logistika sahəsində həyata keçirdiyi layihələr BƏƏ ilə tranzit daşımaların da həcminin artmasına təkan verib. Bu sahədə iki ölkə arasında tranzit daşımaların həcminin 20 faizdən çox artması qeydə alınıb.

## ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

İkitərəfli münasibətlərin ən mühüm tərkib hissəsi təbii ki, enerji sahəsində əməkdaşlıqdır. BƏƏ-nin aparıcı enerji şirkətləri olan "Masdar" və ADNOC-un Azərbaycanın enerji sektorunda fəal iştirakı, yaşıl enerji sahəsində reallaşdırılan layihələr bu əməkdaşlığın bariz nümunəsidir. Günəş və külək elektrik stansiyalarının tikintisini nəzərdə tutan bu layihələr ölkəmizin enerji təhlükəsizliyinin gücləndirilməsinə, bərpaolunan enerji mənbələrinin payının artırılmasına və "yaşıl keçid" strategiyasının sürətləndirilməsinə mühüm töhfə verir.

# AZƏRBAYCANI ZƏFƏR ZİRVƏSİNƏ YÜKSƏLDƏN LİDER

Ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksələn Azərbaycana bu gün dünyada yüksək diqqət və maraq ifadə edilir. Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik məharəti Azərbaycana münasibətdə bərabərhüquqluluq prinsipinə daim riayət edilməsini şərtləndirir.

**RASİM MƏZAHİROĞLU**



Yaşadığımız əsrin ilk qərinəsi Azərbaycan tarixinə qızıl hərflərlə həkk edilməkdə, möhtəşəm nailiyyətlər salnaməsi kimi zamanın axarında öz yerini almaqdadır. Bu uğurların baş memarı Ulu Öndər Heydər Əliyevin siyasi irsinin ən böyük varisi olan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Məhz onun liderliyi ilə müasir Azərbaycanın siyasi, iqtisadi və sosial inkişafında intibah mərhələsi davam edir, beynəlxalq münasibətlər sistemində ölkəmiz ildən-ilə daha güclü mövqe sahibinə çevrilir. Bu mənada tamamilə təbiidir ki, İlham Əliyev şəxsiyyəti, onun fəaliyyəti təkcə Azərbaycan daxilində deyil, regional və qlobal miqyasda siyasi, iqtisadi və təhlükəsizlik proseslərinə təsir göstərən mühüm amil kimi çıxış edir. Belə bir uğur formulunun nüvəsində dayanan başlıca məqam heç şübhəsiz ki, xalq-Prezident birliyi, ötən 22 ildə bu birliyin daha möhkəm özüllər üzərində bərqərar olmasıdır.

## Bu dövlətlər sırasında Azərbaycan da var

Ali məqsədi mənsub olduğu xalqa, onun yaratdığı dövlətə xidmət olan Prezident İlham Əliyev təkcə bu missiyanı layiqincə yerinə yetirmədi, həm də onun ən yaxşı nümunələrindən birini ərsəyə gətirdi. Məhz bu kontekstdə o da təsadüfi deyil ki, İlham Əliyev Azərbaycan coğrafiyasından kənarda yaşayan soydaşlarımızın da liderinə çevrildi. Bu, dünya azərbaycanlıları arasında milli birliyin, həmrəyliyin daha da güclənməsinə mühüm təkan verərək, İlham Əliyevin daha bir tarixi xidməti qismində yaddaşlara həkk edildi. Yenə onun liderliyi ilə Azərbaycan dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız üçün cazibə mərkəzi oldu.

İlham Əliyev Azərbaycanın müstəqilliyinin dönməzliyini və əbədiliyini təmin etmək yolunda Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, atdığı addımlarla ötən dövr ərzində misilsiz nailiyyətlərə imza ataraq, ölkəmizi Cənubi Qafqazdan kənarda da lider dövlət statusuna yüksəldib, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanıdıb. O, qarşıya qoyulan strateji hədəflərə qısa zaman kəsiyində nail olmaqla təkcə Azərbaycan yox, ümumiyyətlə, yaşadığımız region qarşısında yeni perspektivlər açıb. Bu, Avrasiyada enerji və nəqliyyat xəritəsini dəyişdirən layihələr fonunda özünü qabarıq şəkildə göstərir. Həmin layihələrin miqyası o qədər genişdir ki, ən uzaq məkanlardan, hətta okeanın o tayından belə diqqət cəlb edir. Nəticədə ölkəmizin iqtisadi qüdrəti, həmçinin beynəlxalq nüfuzu daha da artır, Azərbaycan qlobal miqyasda proseslərə yön verən dövlətlər sırasında mövqeyini möhkəmləndirir.

## Ölkəmizin inkişaf modeli

Bu gün dünyada Azərbaycana diqqəti artıran əsas məqamlardan biri həm də ölkəmizin inkişaf modelidir. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı neft və qaz gəlirlərindən səmərəli istifadə mərhələsinə qədəm qoydu, qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritetinə çevrildi. İnfrastruktur layihələrinin həyata keçirilməsi, regionların sosial-iqtisadi inkişaf proqramları, özəl sektora dəstək mexanizmləri, bu qəbildən olan digər hallar ölkədə iqtisadi fəallığı artırdı, əhalinin rifah səviyyəsinin yüksəlməsinə gətirib çıxardı. Azərbaycan iqtisadi sahədə keçid dövrünü postsovet məkanında ən tez başa vuran ölkələrdən biri oldu.

## Şanlı qələbənin və sülhün böyük memarı

İlham Əliyevin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri ölkənin ərazi bütövlüyünün, suverenliyinin bərpası, güclü dövlət və güclü ordu konsepsiyasını həyata keçirmək olub. Onun rəhbərliyi altında Azərbaycan Ordusu dünyanın ən güclü silahlı qüvvələrindən birinə çevrildi. Prezidentin qətiyyəti və milli maraqlara sadiqliyi, xalqı öz ətrafında birləşdirməsi Vətən müharibəsində ölkəmizə tarixi qələbəni nəsib etdi. Azərbaycan 21-ci yüzilliyin geridə qoyduğumuz dövründə döyüş meydanında tam və qəti qələbə qazanan yeganə ölkə statusuna yüksəldi. Bununla ata vəsiyyətini və xalqa verdiyi daha bir vədinə əməl edən, şanlı Zəfər yolunun sərkərdəsi olan İlham Əliyev həm də postmüharibə dövründə sülhün memarıdır. O, Cənubi Qafqazda davamlı sülh və əməkdaşlıq mühitinin formalaşmasını dəstəkləyən təşəbbüslərlə çıxış edir.

## Tarixin ən güclü Azərbaycanı

Ərazi bütövlüyünü bərpa etməklə Zəfər zirvəsinə yüksələn Azərbaycana bu gün dünyada yüksək diqqət və maraq ifadə edilir. Prezident İlham Əliyevin diplomatik məharəti Azərbaycana münasibətdə bərabərhüquqluluq prinsipinə daim riayət edilməsini şərtləndirir. Dünyanın istənilən dövləti böyüklüyündən, kiçikliyindən, qüdrətindən asılı olamayaraq, Azərbaycana münasibətdə bunu mütləq nəzərə alır. Ümumiyyətlə, İlham Əliyev ölkəmizin milli maraqlarının tam təmin edilməsi fonunda bütün tərəflərlə ortaq məxrəcə gələ bilən nadir liderlərdəndir.

İlham Əliyev Azərbaycanın qarşıdakı dövrdəki inkişaf konsepsiyasını da zərgər dəqiqliyi ilə müəyyənləşdirib. Ölkəmizin ən müxtəlif istiqamətlər üzrə qüdrətinin artması, Türk dünyası ailəsində yerinin möhkəmlənməsi, aparıcı aktor kimi beynəlxalq münasibətlər sistemində rolunun davamlı yüksəlməsi, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsi, modern tərəqqi şərtlərinin gözlənilməsi, zamanın çağırışlarına daim adekvat reaksiya verilməsi kimi prioritetlər tarixin ən güclü Azərbaycanının qarşısında yeni uğur perspektivləri açır.





# DÖVLƏTİN BAĞIŞLAMAQ İRADƏSİ

Prezident İlham Əliyev tərəfindən irəli sürülən amnistiya təşəbbüsü humanist addım olmaqla bərabər, ölkənin ictimai-siyasi həyatı üçün də mühüm hadisədir. Bu cür təşəbbüslər Azərbaycan vətəndaşına verilən dəyərin, cəmiyyətdəki birlik və bərabərliyin qorunmasına göstərilən diqqətin daha bir nümunəsidir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Tarixi Zəfərimizin beşinci ilində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev minlərlə ailənin sevincinə səbəb olacaq daha bir təşəbbüslə çıxış edib. Dövlət başçısı amnistiya təşəbbüsünü irəli sürüb. Bu təşəbbüsün əsasında suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğu, humanizm və mərhəmət ənənələrinə sadiqlik, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyəti kimi mühüm məqamlar dayanır.

## KİMLƏRƏ ŞAMİL EDİLƏCƏK?

Amnistiya aktına əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, sənədə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq.

## TARİXİN ƏN BÖYÜK AMNİSTİYA AKTI

Qeyd edək ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində elan olunan bu amnistiya aktı Prezident İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə elan edilmiş analoji təşəbbüslər arasında əhatə dairəsinə görə ən böyüyüdür.

Bundan öncəki amnistiya aktlarına əsasən:

- Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə 2007-ci il mayın 8-də Milli Məclis Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Amnistiya aktını qəbul edib. Bu, 9000 nəfərə şamil edilib;
- Milli Məclis 2009-cu il martın 17-də Mehriban Əliyevanın təşəbbüsü ilə Novruz bayramı ilə əlaqədar Amnistiya aktını qəbul edib. 9000 məhbusa tətbiq olunub;
- Mehriban Əliyevanın təşəbbüsü ilə milli həmrəyliyin gücləndirilməsi məqsədilə Milli Məclis 2013-cü il 7 may tarixində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan Amnistiya aktını qəbul edib. 10 040 nəfərə şamil edilib;
- Mehriban Əliyevanın təşəbbüsü ilə 28 May - Respublika günü münasibətilə 2016-cı ildə amnistiya elan edilib. Amnistiya qərarı ümumilikdə 10 868 nəfərə şamil olunub;
- Mehriban Əliyevanın təşəbbüsü ilə 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Milli Məclis Amnistiya aktı qəbul edib. Amnistiya aktından 15 000-ə yaxın şəxs faydalanıb;
- Prezident İlham Əliyevin təşəbbüsü ilə Zəfər Günü münasibətilə 2021-ci ildə Amnistiya aktı qəbul edilib. Amnistiya aktı 17 267 şəxsə şamil olunub.

## ƏFV İNSTİTUTUNUN BƏRPASI

Bəli, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu siyasətin mühüm tərkib hissəsini cəza siyasətində humanizm, mərhəmət və fərdi yanaşma prinsiplərinin tətbiqi təşkil edir. Əfv və amnistiya institutları məhz bu prinsiplərin hüquqi mexanizmləri kimi çıxış edir. Dövlətin humanizm siyasətinin əsasını təşkil edən əfv və amnistiya ənənəsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Məhz Ümummilli Lider tərəfindən 1995-ci ildə müstəqil dövlətimizin tarixində ilk əfv fərmanı imzalanmaqla ölkəmizdə əfv institutu bərpa edilib. 1995-2003-cü illər ərzində imzalanmış 32 əfv fərmanı və sərəncamı ilə ümumilikdə, 3104 məhkum cəzanın çəkilməmiş hissəsindən azad olunub. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş yeddi amnistiya aktı nəticəsində 77 mindən artıq məhkum həbsdən azad edilərək ailələrinə və cəmiyyətə qovuşub. 1995-2025-ci illər ərzində əvvəlcə Ulu Öndər Heydər Əliyevin, sonra isə Prezident İlham Əliyevin imzalamış olduqları ümumilikdə 71 əfv fərman və sərəncamları, 1996-cı ildən başlayaraq qəbul olunmuş 12 amnistiya aktı minlərlə məhkumun cəzanın çəkilməyən hissəsindən azad edilməsi ilə nəticələnib.



## AMNİSTİYA TƏŞƏBBÜSÜNDƏ ZƏFƏR İZİ

"Konstitusiya və Suverenlik İli" çərçivəsində elan olunan növbəti amnistiya aktı Prezident İlham Əliyev tərəfindən humanizm dəyərlərinin ən ali səviyyədə diqqətdə saxlanıldığını göstərir. Sözügedən amnistiya aktı xüsusi əhəmiyyət daşıyır. Çünki onun əhatə dairəsində məhz Vətən uğrunda müharibədə, suverenliyimizin, ərazi bütövlüyümüzün bərpasında iştirak etmiş şəxslərin, bu uğurda canlarını fəda edən şəhidlərimizin yaxınlarının xüsusi olaraq vurğulanması şəhid və qazi ailələrinə göstərilən yüksək diqqətin bariz nümunəsidir. Məhz bu səbəbdən amnistiya cəmiyyət üçün ikiqat sevinc mənbəyidir.

Prezident İlham Əliyev tərəfindən atılan bu addım böyük humanist təşəbbüs olmaqla bərabər, ölkənin ictimai-siyasi həyatı üçün də mühüm hadisədir. Çünki bu cür təşəbbüslər Azərbaycan insanına verilən dəyərin, cəmiyyətdəki birlik və təşəbbüsün qorunmasına göstərilən diqqətin nümunəsidir. Milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasətin davamıdır. Həmçinin amnistiya aktı dövlətin həm də bağışlamaq iradəsini ortaya qoyur. Törətdiyi əməldən nəticə çıxaran, peşmançılıq hissi keçirən şəxslər üçün yeni bir imkan, yeni ümid yaradır. Cəmiyyətdə hökm sürən həmrəyliyi, milli birliyi, vahidliyi daha da gücləndirir.

# RUSİYA ÜÇÜN TƏHLÜKƏLİ PROQNOZ

Kreml etiraf etməsə də, müharibə və sanksiyalar iqtisadiyyata ciddi təsir etməkdədir. Hər gün milyonlarla dollara başa gələn müharibə insanları ciddi sosial problemlərlə üz-üzə qoyur.



AZƏR NURİYEV



Rusiyanın Ukraynada apardığı müharibə üç ildən artıqdır ki, davam edir. Kreml etiraf etməsə də, müharibə və sanksiyalar iqtisadiyyata ciddi təsir etməkdədir. Hər gün milyonlarla dollara başa gələn müharibə yüz minlərlə insanın ölümünə səbəb olub. Orduya əsgər çağırışı ciddi narazılıqlarla müşayiət edilir. Qərb Rusiya iqtisadiyyatını çətin vəziyyətə salmaq və Vladimir Putini müharibəni dayandırmağa məcbur etmək məqsədilə daha geniş və sərt sanksiyaları gündəmə gətirir. Amma Rusiya təbliğat maşını iqtisadi artımdan, yüksəlişdən bəhs edir.

**KREML: "İQTİSADİYYAT ÖZÜNÜ DOĞRULTDU"**

Rəsmi təbliğat iddia edir ki, Rusiya iqtisadiyyatı qlobal qeyri-sabitlik şəraitində özünü doğruldub. 2025-ci ildə sanksiya təzyiqi və tarif müharibəsi fonunda bir çox ölkələrin iqtisadiyyatı dağılmağa başladı. Avropa durğunluq həddindədir, ABŞ başqalarının hesabına möhkəmlənməyə çalışır, Asiya ölkələri yeni alternativ ticarət marşrutları qurur. Rusiya bu reallıqlar içərisində qibtə ediləcək dayanıqlılıq nümayiş etdirir. İqtisadiyyatın strukturunda qeyri-xammal sahələrinin payı artır, yeni istehsal sahələri açılır, rəqəmsal platformalar güclənir. Eyni zamanda, dövlət bütün sosial öhdəliklərini qətiyyətlə yerinə yetirir, pensiyalar indeksləşdirilir. RF Prezident Administrasiyasının rəhbərinin müavini Maksim Oreşkin bəyan edib ki, Rusiya iqtisadiyyatı sanksiyalara baxmayaraq, davamlı artım nümayiş etdirir və dünyadakı ümumi inkişaf sürətini qabaqlayır. Sənaye və ticarət naziri Anton Alixanovun sözlərinə görə, Rusiyanın qeyri-xammal qeyri-enerji ixracı bu ilin doqquz ayı ərzində 6% artaraq 111,4 milyard dollara çatıb. O cümlədən sənaye ixracı 85,4 milyard, kənd təsərrüfatı ixracı isə 26 milyard dollar təşkil edib. Nazirin proqnozlarına görə, il sonu üzrə 149,2 milyard dollar həcmində qeyri-xammal qeyri-enerji ixracı hədəfinə nail olunacaq. Bunun 111,4 milyard dolları sənaye ixracı və 37,8 milyard dolları kənd təsərrüfatı ixracı olacaq.

**RƏQƏMLƏR BAŞQA ŞEY DEYİR**

Rəsmilər nikbin bəyanatlar səsləndirsələr də, Qərbdə fərqli mövqe var. Qərbdə düşünürlər ki, sanksiyalar Rusiya iqtisadiyyatına və büdcəsinə ciddi təsir göstərir. Sanksiyalar və neftə tətbiq olunan qiymət həddi Rusiyanın gəlirlərini xeyli azaldıb. Bunun fonunda Rusiyanın büdcəsində də böyük kəsirlər yaranıb. Məsələn, 2025-ci ilin yanvar-aprel aylarında büdcə kəsiri təxminən 40,7 milyard dollar təşkil edib. Rəsmi şəxslər iqtisadiyyatın dayanıqlı olduğunu iddia etsələr də, müstəqil iqtisadçılar və analitiklər sanksiyaların təsirinin artdığını və vəziyyətin gələcəkdə daha da ağırlaşacağını bildirirlər. Bəzi proqnozlarda gələn il Rusiya iqtisadiyyatında "mülayim eniş" və ya şok gözlənilir. Sanksiyalar vətəndaşların həyatına da mənfi təsir göstərir. Beynəlxalq Valyuta Fondu 2025-ci il üçün Rusiyanın ÜDM artımı proqnozunu 0,6%-ə qədər endirib. Bu, 2024-cü ildəki təxminən 4%-lik artımla müqayisədə kəskin yavaşlamadır. İqtisadi artım əsasən hərbi-sənaye kompleksinə yönəldilən trilyonlarla büdcə xərcləri hesabına əldə edilib. Lakin bu sektorlar artıq öz potensiallarının yuxarı həddinə çatıb və qeyri-hərbi sektorlar zəifləyir. Ölkədə inflyasiya yüksək olaraq qalır (təxminən 9%). Mərkəzi Bank inflyasiyanı cilovlamaq üçün faiz dərəcələrini yüksək səviyyədə saxlayır ki, bu da kreditləşməni boğur və iqtisadi fəallığı azaldır. Yüz minlərlə insanın orduya cəlb olunması və ya ölkəni tərk etməsi kəskin əmək qıtlığına səbəb olub, bu da iqtisadiyyatın böyüməsinə mane olur. Müdafiə xərcləri büdcənin demək olar ki, yarısını təşkil edir. Ölkənin Milli Rifah Fondu da əhəmiyyətli dərəcədə tükənib. Sanksiyalar iqtisadiyyatı dərhal çökdürməsə də, idxal-ixrac kanallarını məhdudlaşdırır və texnologiya tədarükündə problemlər yaradaraq tədricən zəiflədir. Xülasə, Rusiya iqtisadiyyatı müharibənin gətirdiyi struktur disbalanslar və xarici təzyiqlər səbəbindən böhran astanasındadır və 2026-cı ildə durğunluq dövrünə qədəm qoyur.



## İTKİLƏR BÖHRAN SƏVİYYƏSİNƏ ÇATIR

Rusiyada avtomobil satışları da çöküb. Təkcə 2025-ci ilin ilk yarısında yeni avtomobil satışları ötən ilin eyni dövrü ilə müqayisədə 23,9% azalıb. Tikinti şirkətlərinin təxminən 20%-i yüksək ipoteka dərəcələri fonunda daşınmaz əmlak satışlarının kəskin azalması səbəbindən iflas təhlükəsi ilə üzləşib. Bundan əlavə, Rusiya iqtisadiyyatını kadr çatışmazlığı da sarsıdır ki, bu da təkcə logistikada bir milyon işçiyə çatıb. Əhali sürətlə kasıblaşır. Rusların təxminən yarısı kommunal xidmətlər və gündəlik xərclər üçün kredit götürür.

**MI6: "RUSİYA XAOS İXRAC EDİR"**

Rusiya ilə bağlı ən təhlükəli proqnozu MI6-nın direktoru Bleyz Metreveli səsləndirib. O, ilk rəsmi çıxışında "Rusiyadan gələn ciddi təhlükə" barədə xəbərdarlıq edib. "Xaosun ixracı Rusiyanın beynəlxalq qarşılıqlı əlaqəyə yanaşmasının səhvi deyil, xüsusiyyətidir və biz Putin öz hesablamalarını dəyişməyə məcbur edilənə qədər bunun davam edəcəyinə hazır olmalıyıq", – deyə Metreveli bildirib. Onun qənaətincə, Kremlin hərbi maşını da ciddi şəkildə çökə bilər. Bunun səbəbi Moskvanın dekabrdan etibarən neft və qaz satışından gəlirlərinin azalma riskləridir. Bu gəlirlər ötən ilin eyni dövrü ilə müqayisədə təxminən iki dəfə azala bilər. Proqnozlaşdırılır ki, dekabr gəlirləri hətta 410 milyard rublu ($5,17 milyard) keçməyəcək.

Rəqəmlər, ortaya qoyulan hesabatlar, səslənən fikirlər onu deməyə əsas verir ki, Rusiyanı ciddi problemlər gözləyir. Ölkə sanksiyalar, müharibənin iqtisadi yükü və daxili sosial problemlərin məngənəsində çabalamaqda davam edəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



## GƏLƏN İL ƏMLAK VƏ QIZIL BAZARINDA UCUZLAŞMA GÖZLƏNİLİRMİ?

# PUL YATANDA AZALIR, İŞLƏYƏNDƏ İSƏ ÇOXALIR





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Hazırda daha çox investisiya daşınmaz əmlak və qızıla edilir. Lakin ekspertlər növbəti üç ildə böyük yatırımları məsləhət görmürlər.**

Son vaxtlar sosial şəbəkələrdə Azərbaycanın investisiya bazarı ilə bağlı müzakirələr intensivləşib. Bəzi iqtisadçılar yaxın dövrdə əmlak bazarında qiymətlərin enəcəyini, eyni zamanda son aylarda sürətlə bahalaşan qızılın da ucuzlaşacağını proqnozlaşdırırlar. Bu iddialar ictimaiyyətdə investisiya qərarlarına dair suallar yaradıb. Bəs həqiqətən gələn il əmlak və qızıl bazarında ucuzlaşma gözlənilirmi? Ümumiyyətlə, əhali arasında hansı investisiya alətləri daha populyardır və yatırım edərkən hansı məqamlara diqqət yetirmək lazımdır?

### "QIZILIN BAHALAŞMA EHTİMALI ÇOXDUR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, iqtisadçı-ekspert Vüqar Oruc deyir ki, hazırkı iqtisadi şəraitdə, əhali əmlak və qızıla üstünlük verdiyi üçün onların ucuzlaşma ehtimalı azdır: "Hər hansı bir əmlak növünün ucuzlaşması və ya bahalaşması barədə proqnoz verərkən onun qiymətinə təsir edən amillər nəzərə alınmalıdır. Əmlak və qızıl iqtisadi proseslərdən asılı olaraq, qiymət artımı və ya ucuzlaşma meyllərinə məruz qalır. Yaxın dövrdə qızılın ucuzlaşması real görünmür. Əksinə, proqnozlara görə, qızılın bahalaşma ehtimalı daha çoxdur".

### "ƏHALİ KAPİTALININ GÖZÜNÜN ÖNÜNDƏ OLMASINI İSTƏYİR"

Həmsöhbətimiz bildirir ki, əmlak hazırda ölkəmizdə özünü doğruldan yeganə investisiya kimi tanınır: "Ölkədə biznes investisiyaları və fond birjalarına yatırımlar hələ də geniş yayılmayıb. Bundan əlavə, əvvəlki nəsil üçün uğursuz bank depozitləri ilə bağlı təcrübələr hələ də yaddaşdadır. Bu amillər əmlakın hazırda özünü doğruldan yeganə investisiya vasitəsi olmasını möhkəmləndirir. Təbii ki, hər hansı fors-major hadisələr risk yarada bilər, amma risk hər yerdə mövcuddur. Bu baxımdan, əmlak digər investisiya alətlərinə nisbətən daha stabil hesab olunur. Əmlakla qızıl arasında əsas fərq ondadır ki, qızıl əsasən sabit qiymət artımına malikdir, əmlak isə həm qiymət artımı, həm də icarədən gəlir əldə etmək imkanı ilə investisiyanı daha cəlbedici edir. Dünyada depozitlər populyardır, lakin Azərbaycanda geniş yayılmayıb. Əhali öz kapitalının gözünün önündə olmasını istəyir. Qızıl və əmlakı hər gün görür, saxlayır və qiymət artımını müşahidə edir. Depozit isə yanında deyil, görmək mümkün deyil, riskləri var və verilən faizlər inflyasiya səviyyəsini əksər hallarda qarşılaya bilmir".



Vüqar Oruc

## GƏLƏN İL İNVESTİSİYA ÜÇÜN ƏLVERİŞLİ İL DEYİL?

V.Oruc deyir ki, proqnozlara görə, növbəti il iqtisadi baxımdan çətin olacaq: "Lakin iqtisadi fəaliyyətin aktiv olması ilə mövcud problemlərin təsirini azaltmaq və qarşısını almaq mümkündür. 2026-cı ildə ehtimal olunan risklər arasında devalvasiya və iqtisadi fəallığın azalması yer alır ki, bu da investisiya üçün əlverişli deyil. Bundan əlavə, vergilərin artırılması, maliyyə sərtləşməsi də potensial risklər sırasındadır. Buna baxmayaraq, vətəndaşlar böyük ehtimalla yenə də daşınmaz əmlaka və qızıla üstünlük verəcəklər".

### "NÖVBƏTİ ÜÇ İLDƏ..."

İqtisadçı-ekspert Fərhad Pərvizi bildirir ki, 2026-cı il iqtisadi baxımdan çətin olacaq: "İlk dəfədir ki, dövlət büdcəsində xərclər artmır, sabit qalır. Azərbaycan iqtisadiyyatı prosiklikdir: dövlət xərcləri artmayanda iqtisadiyyat da artmır. Bundan əlavə, Donald Trampın OPEC və Səudiyyə Ərəbistanı ilə danışıqları neftin ucuzlaşmasına səbəb ola bilər. 2027-ci ildə də ümumilikdə dünya maliyyə böhranı proqnozlaşdırılır. Bu səbəblərdən növbəti üç ildə böyük investisiyalar etməyi düzgün hesab etmirəm".

### "DAŞINMAZ ƏMLAKA İNVESTİSİYA QOYMAQ OPTİMAL DEYİL"

Fərhad Pərvizi 2014-cü ildə daha kiçik mənzilini sataraq böyük mənzil alıb. Bunun üçün 300 min manat xərcləyib. Deyir ki, o zaman bu məbləğ 390 min dollar edirdi. 2025-ci ildə həmin evin qiyməti 700 min manata çatıb. Amma dollara çevirdikdə 700 min manat yalnız 410 min dollar edir. O deyir ki, 11 il ərzində dollarla gəlir cəmi 21 min dollar olub. Əgər həmin 390 min dolları qızıla yatırsaydı, bu gün 1,2 milyon dollar, ABŞ-dəki 500 ən böyük şirkətin səhmlərinə yatırsaydı isə təxminən 1,7 milyon dollar əldə edə bilərdi.

Mütəxəssis bildirir ki, əgər evə ehtiyacın varsa, ev almaq zəruridir, amma investisiya məqsədilə daha ağıllı seçimlər etmək lazımdır: "Səhm bazarı, qızıl və iqtisadiyyatı inkişaf etdirən layihələrə yatırım etmək gəlirli ola bilər, lakin yalnız daşınmaz əmlaka və dəmir-betona investisiya qoymaq optimal deyil. Ev tikilib bitir, amma zavod və fabrikə yatırım iqtisadiyyata yeni dəyərlər gətirir və daha yüksək gəlir potensialına malikdir".



Fərhad Pərvizi

## "ƏN GƏLİRLİ YATIRIM BİZNES QURMAQDIR"

Biznes koç Tural Əliyev isə sosial şəbəkədə dərc etdiyi paylaşımında investisiya yanaşmasını belə izah edir: "Təsəvvür edin, il 2000-dir və cibinizdə 10 min dollar pul var. Bəs bu vəsaiti hara yönəltmək daha sərfəli olardı - qızıla, torpağa, yoxsa sadəcə dollar kimi saxlamağa? 25 il əvvəlki vəziyyətlə bu günü müqayisə etdikdə mənzərə belədir: 2000-ci ildə qızılın unsiyası təxminən 300 dollar idi, bu gün isə 2500-3000 dollar civarındadır. O dövrdə 10 min dollar qızıla yatırım edilsəydi, bu gün təxminən 85 min dollar dəyərində olardı".

Həmin məbləğ Bakıda, xüsusən şəhərin inkişaf edən ərazilərində torpağa qoyulsaydı, bu gün həmin əmlakın qiyməti 200-250 min dollar aralığında ola bilərdi. Yəni 20-25 qat artım. Torpaq, əsasən, dəyərini qoruyan və artıran aktiv kimi qiymətləndirilir.

Vəsaiti dollar etdikdə isə, mütəxəssis bildirir ki, 10 min dollar nominal olaraq dəyişməsə də, alım gücü ciddi şəkildə azalıb. Dolların 1.7 AZN olması reallığı dəyişmir, pul uzun müddət "yatanda" dəyər itirir. T.Əliyevin sözlərinə nəticə olaraq dollar yalnız qoruyur, böyütmür, qızıl sabitlik verir, torpaq isə doğru seçim edildikdə insanı varlandıra bilir. O əlavə edir ki, bütün bunlara baxmayaraq, ən gəlirli yatırım biznes qurmaqdır: "Çünki qızıl da, torpaq da, pul da sizin üçün işləyə bilmir, amma ağlınız, bilikləriniz və ideyalarınız işləyə bilər. Pul yatanda azalır, işləyəndə isə çoxalır".

# “HƏR YERİN ÖZÜNƏMƏXSUS HEKAYƏSİ VAR”

Aleksandr V.Kammel: “Texnologiya hekayə danışmağı dəstəkləyir, lakin heç vaxt onu əvəz etmir. Son illərdə kinematoqrafiya, səs dizaynı və effektlərdə təsirli irəliləyişlər müşahidə etdik, lakin diqqət çəkən filmlər güclü yaradıcı konsepsiyalar üzərində qurulanlardır”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Gimarayeş şəhərində Beynəlxalq Turizm Filmləri Festivalının (CİFFT) Dünya Turizm Filmlərinin Mükafatlandırma mərasimi bir neçə gündür ki, başa çatıb. Festivalın yekunu ilə bağlı CİFFT-in direktoru Aleksandr V.Kammel “Kaspi” qəzetinə eksklüziv müsahibə verib.

**YARADICILIQ SƏVİYYƏSİ, İSTEHSAL KEYFİYYƏTİ VƏ STRATEJİ DÜŞÜNCƏ**

**● Cənab Kammel, gəlin, CİFFT-in 37-ci təqdimatı haqqında danışaq. Bu, kiçik bir rəqəm deyil. Builki festival haqqında fikirləriniz...**

● Dünya Turizm Filmləri Mükafatlarının 37-ci təqdimatına çatmaq böyük nailiyyətdir. Bu il təqdimat bir daha turizm audiovizual kommunikasiyasının artan gücünü təsdiqlədi. Yaradıcılıq səviyyəsi, istehsal keyfiyyəti və strateji düşüncə müstəsna idi. Güclü hekayələr, emosional təsirə malik və müasir auditoriyanın gözləntilərini aydın şəkildə anlayan filmlər izlədik. Bu buraxılış həqiqətən sənayemizin təkamülünü əks etdirir. 37 ildən sonra CIFFT-də turizm kommunikasiyasında mükəmməlliyin təşviqinə həsr olunmuş inkişafa şahid olmaqdan və töhfə verməkdən qürur duyuruq. Mərasimi Gimarayeşdə keçirmək xüsusi bir atmosfer yaratdı. Bura irsə, kimliyə, mədəniyyətə və davamlılığa sadiqliyə malik bir şəhərdir.

**● Hər il festivallarda onlarla ölkədən təxminən 4000 film təqdim olunur. Ən yaxşı turizm filmi hansı mesajı çatdırmalıdır?**

● Ən güclü turizm videoları həmişə strategiyaya əsaslanır. İstər məlumatlılığı artırmaq, istərsə müəyyən səyyahı cəlb etmək, istərsə də qavrayışları yenidən formalaşdırmaq olsun, hekayə brendin məqsədləri ilə uyğun olmalıdır. Söhbət maraq, ilham və ya nostalji kimi duyğuları oyadan və insanları hərəkətə keçməyə təşviq edən hekayə yaratmaqdan gedir. Texniki keyfiyyət də mühüm rol oynayır. Səs, temp və kinematoqrafiya kimi elementlər mesajı dəstəkləyir.

> *“Rezonans doğuran şey orijinallıq, emosiya və özünəməxsusluqdur. Texniki keyfiyyət təsir gücünü artırır, lakin ilham filmi yaddaqalan edir.”*

**İLHAM VƏ TEXNOLOGİYANIN HARMONİYASI**

**● Zaman sürətlə dəyişir, rəqəmsallaşma artır. Son illərdə çəkilmiş turizm filmlərinin keyfiyyəti və təsiri də dəyişib. Bəs ilhama əsaslanan yaradıcılıq nə yerdədir? Sizin üçün məzmun, yoxsa zamana uyğun texniki keyfiyyət daha vacibdir?**

● Hər ikisi vacibdir, amma eyni dərəcədə deyil. Texnologiya hekayə danışmağı dəstəkləyir, lakin heç vaxt onu əvəz etmir. Son illərdə kinematoqrafiya, səs dizaynı və effektlərdə təsirli irəliləyişlər müşahidə etdik, lakin diqqət çəkən filmlər güclü yaradıcı konsepsiyalar üzərində qurulanlardır. Bu gün izləyicilər məzmundan bezíblər: rezonans doğuran şey orijinallıq, emosiya və özünəməxsusluqdur. Texniki keyfiyyət təsir gücünü artırır, lakin ilham filmi yaddaqalan edir.




## TURİZM BRENDLƏRİ İLƏ MEDIA İCMASI ARASINDA DİALOQ

**● Artıq iki ildir ki, festivalda “Turizm Mətbuatı Mükafatı”nı təqdim edirsiniz. Bu mükafatı təsis etməkdə məqsəd medianın rolunu vurğulamaqdır?**

● “Turizm Mətbuatı Mükafatı” jurnalistikanın turizm təbliğatındakı dürüst və əhatəli rolunu vurğulamaq üçün yaradılıb. Media mütəxəssisləri kontekst, etibarlılıq və əhatə dairəsi təmin edirlər. Onlar ictimai qavrayışa reklamın edə bilmədiyi şəkildə təsir göstərirlər. Mükafat turizm videosundakı mükəmməl hekayələri qiymətləndirir və turizm brendləri və təşkilatları ilə media icması arasında daha sıx dialoqu təşviq edir.

**● Münsiflər heyətinin üzvü olaraq filmləri, videoları və hekayələri diqqətlə izlədim. Təqdim olunan yerlər niyə yalnız gözəlliyi tərənnüm edir? Sizcə, tənqidi baxış turizmin inkişafına dəstək olmurmu?**

● Ənənəvi olaraq, turizm filmləri bir yerin gözəlliyini vurğulayır, çünki onlar tanıtım funksiyasına xidmət edir. Lakin son illərdə biz orijinallığa doğru açıq bir dəyişiklik gördük. Tamaşaçılar dürüstlüyə dəyər verir və bəzi məkanlar indi “mükəmməl açıqca”dan kənara çıxan hekayələri qəbul edirlər. Bunun əla nümunələrini “Linzə səfər edin” və “Osloya səfər edin” filmlərində izlədik. Onlar ünsiyyətlərində daha qeyri-ənənəvi və özünüdərk



yanaşmalarını araşdırdılar. Onlar göstərir ki, bir məkan mürəkkəbliyini, ziddiyyətlərini və ya sadəcə gündəlik reallığını qəbul edərək də cəlbedici ola bilər.

**“BAKI FESTİVALI ÜÇÜN DARIXIRIQ”**

**● Siz Bakıda keçirilən festivalda da iştirak etmisiniz. Həmçinin ötən il və bu il müsabiqəyə Azərbaycan turizmi haqqında film təqdim olunub. Hazırda əməkdaşlıq hansı səviyyədədir?**

● Azərbaycan CIFFT həlqəsində güclü və mənalı yerini qoruyub saxlayıb. İllər ərzində bir neçə Azərbaycan turizm filmi beynəlxalq səviyyədə yarışaraq sanballı hekayə danışma və ölkənin mədəni zənginliyini və mənzərələrini nümayiş etdirmək üçün aydın bir öhdəlik nümayiş etdirib. Diqqətəlayiq nümunələr arasında 2024-cü ildə Dünyanın Ən Yaxşı Turizm Filmlərindən biri kimi mükafatlandırılan “AZAL Təhlükəsizlik Videosu” və 2025-ci il dövriyyəsində iştirak edən Azərbaycan Turizm Bürosunun “Take Another Look” filmi var. Bakı bir vaxtlar CIFFT şəbəkəsinin bir hissəsi olan və Azərbaycan yaradıcıları ilə qlobal turizm filmləri icması arasında əlaqələrin möhkəmləndirilməsinə kömək edən festivala ev sahibliyi də edib. Biz Bakı festivalı üçün darıxırıq və ölkənin yaradıcılıq sektorunda böyük potensial görürük. Gələcəkdə Azərbaycan turizm filmləri üçün əməkdaşlığı genişləndirməyi səbirsizliklə gözləyirik.

# “İŞÇİYƏ XEYİRDİR, MÜDİRƏ ZİYAN”

Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər maaşların verilməsində illərdir davam edən ziddiyyəti aradan qaldırır. Bundan sonra əməkhaqqı mütləq ayda ən azı bir dəfə ödəniləcək, iki dəfə ödəniş isə məcburi deyil, yalnız işçi ilə işəgötürən razılaşarsa mümkün olacaq.






ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son günlər Əmək Məcəlləsinə təklif edilən dəyişikliklər əməkhaqqının verilmə qaydaları ilə bağlı müzakirələrə səbəb olub. Təklif olunan yeniliklərə əsasən, əməkhaqqı işçilərə ayda bir dəfədən az olmayaraq ödənilməlidir. Eyni zamanda, işçi ilə işəgötürən arasında qarşılıqlı razılıq olduğu halda aylıq əməkhaqqı avans və qalan hissə olmaqla iki hissəyə bölünərək, on altı gündən çox olmayan fasilə ilə ayda iki dəfə də verilə bilər. Bu dəyişiklik bəzi hallarda Azərbaycanda əməkhaqqının artıq ayda iki dəfə veriləcəyi kimi təqdim edilsə də, əslində söhbət məcburiyyətdən deyil, tərəflərin razılığı əsasında mümkün olan bir mexanizmdən gedir.

## “AYDA İKİ DƏFƏ ƏMƏKHAQQI ÖDƏMƏK MÜMKÜN DEYİL”

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının İcraiyyə Komitəsinin sədri Sahib Məmmədovun sözlərinə görə, Əmək Məcəlləsinin 172.1. maddəsi qismən dəyişdirilir: “Əvvəlki qayda belə idi ki, aylıq əməkhaqqı işçilərə, bir qayda olaraq, iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilməlidir. Əməkhaqqı illik dövr üçün hesablanan işçilərə isə ayda bir dəfədən az olmayan müddətdə verilməlidir”.

S.Məmmədov bildirdi ki, yeni layihədə isə imperativlik aradan qalxır. Çünki praktikada ayda iki dəfə (avans və qalan hissə olmaqla ikiyə bölünməklə) əməkhaqqı ödəmək demək olar ki, mümkün deyil: “Xüsusən büdcədən maliyyələşən qurumlar bunu edə bilməyəcək. Çünki Maliyyə Nazirliyi əməkhaqqının ödənilməsi xəttini ayda iki dəfə açmağa razılıq verməyəcək. Ümumiyyətlə, bu, hesabatlılıqda da müəyyən problemlər yaradır. Ona görə yeni təklif olunan layihədə deyilir ki, əməkhaqqı işçilərə ayda bir dəfədən az olmayaraq verilməlidir. Tərəflərin qarşılıqlı razılığı ilə aylıq əməkhaqqı iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə də verilə bilər. Yəni “dəyişiklikdən sonra işçilərə əməkhaqqı ayda iki dəfə veriləcək” deyə bir şey yoxdur”.

Əmək qanunvericiliyi üzrə ekspert Nüsrət Xəlilov isə deyir ki, hazırda qüvvədə olan qaydalar məcburidir, yeni versiyada isə könüllülük prinsipinə əsaslanır: “Bu qayda əvvəl də var idi. Əmək müqaviləsində qeyd olunurdu ki, əməkhaqqının başqa vaxt verilməsi də müəyyən oluna bilər. Yəni qanunla iki dəfə verilməli idi. Amma əmək müqaviləsində bir dəfə verilməsi nəzərdə tutulubsa, ayda bir dəfə verilə bilər. O səbəbdən də əksər hallarda maaş bir dəfə verilirdi. Əvvəl olan qayda məcburi idi. Amma əməkhaqqının başqa vaxt verilməsi də mümkün idi”.

N.Xəlilovun fikrincə, indiki dəyişiklikdə qeyd olunur ki, işçilərə əməkhaqqı ayda bir dəfədən az olmayaraq verilməlidir: “Əslində çox da ciddi bir dəyişiklik yoxdur. Çünki yenə də hər şey tərəflərin razılığından asılıdır. İşəgötürən bir, ya iki dəfə əməkhaqqı verəcəyini yenə də özü təyin edir”.

## “İŞÇİ ÜÇÜN İKİ DƏFƏ MAAŞ VERİLMƏSİ DAHA MÜNASİBDİR”

Ekspertin sözlərinə görə, işçi üçün iki dəfə maaş verilməsi daha münasibdir. Amma bu, işəgötürən üçün əlverişli deyil: “Çünki müəssisədə iş yükü artmış olur. Məsələn, əməkhaqqı ayda bir dəfə olduqda hesablanması, banka tapşırıq verilməsi bir dəfə olurdusa, iki dəfə olduqda bu proses də iki dəfə həyata keçirilməlidir. O səbəbdən müəssisə öz resurslarına əsasən qərar verməlidir ki, iki dəfə əməkhaqqı verməyə imkanı çatacaqmı”.


Sahib Məmmədov

## “Bu, əməkhaqqının gecikdirilməsi hesab olunur”

Müsahibimiz düşünür ki, yeniliklərdən sonra iş dünyasında çox da bir şey dəyişməyəcək: “Çünki bu dəyişiklik müəssisələrdə işi artıracağı üçün işəgötürənlər buna getmək istəməyəcəklər. Yalnız xüsusi hallarda tətbiq oluna bilər. Onsuz da bu qaydanı tətbiq etmək istəyən müəssisə əvvəl də tətbiq edə bilirdi. Heç bir məhdudiyyət yox idi”.

N.Xəlilovun fikrincə, əməkhaqqı müqavilədə göstərildiyi tarixdə verilməzsə, işəgötürən işçiyə faizi ilə maaşını ödəməlidir: “Əməkhaqqının gecikdirilməsi qanunla müəyyən edilir. Əmək Məcəlləsinin 172-ci maddəsinin beşinci bəndində göstərilir ki, əməkhaqqının verilməsi işəgötürənin təqsiri ucbatından gecikdirilərsə, hər gecikdirilmiş gün üçün əməkhaqqının bir faizi məbləğində əlavə ödəniş verilməlidir. Əgər əməkhaqqı iki dəfə göstərilib lakin bir dəfə ödənilirsə, bu da gecikdirmə hesab olunur və işçiyə əlavə ödəniş edilməlidir”.


Nüsrət Xəlilov

## “İŞÇİLƏRİN MOTİVASİYASINA MÜSBƏT TƏSİR GÖSTƏRƏCƏK”

İnsan resursları və işə qəbul üzrə ekspert Sevda Quliyeva isə bildirdi ki, Əmək Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, işçilərə əməkhaqqı iki dəfə verilərsə, bu işçilərin büdcə planlamasına müsbət təsir edəcək: “Vətəndaş əməkhaqqını iki dəfə almaqla ödənişlərini daha rahat şəkildə ödəyə biləcək. Bu da işçilərin işə olan motivasiyasının artırılmasına müsbət təsir göstərəcək”.

S.Quliyevanın sözlərinə görə, hazırda bir neçə sektorda bu qayda tətbiq edilir. Bəzi müəssisələrin daxilində ayda iki dəfə əməkhaqqı verilməsi nəzərdə tutulub: “Bu addım bütün şirkətlərə tətbiq edilə bilər”.

BURADA YAŞLILARA DAHA İXTİSASLAŞMIŞ VƏ KEYFİYYƏTLİ TİBBİ YARDIM GÖSTƏRİLİR

# SAĞLAM YAŞLANMAĞA XİDMƏT EDƏN MƏRKƏZ



AYGÜN İBRAHİMLİ

**Bakı Şəhər Herontoloji Mərkəzi 2020-ci ildə yaradılıb. Məqsəd yaşlı insanlara daha ixtisaslaşmış və keyfiyyətli tibbi yardım göstərməkdir.**

Yaşlı insanlar üçün qayğı, onların sağlamlığını qorumaq, müstəqil həyatlarını davam etdirmələrinə kömək etmək sosial siyasətin əsas vəzifələrindəndir. Dünya təcrübəsində onlara yönəlik mərkəzlər müxtəlif şəkildə xidmət verir. Bu dəfə əhalinin yaşlı təbəqəsi üçün xidmət göstərən Səhiyyə Nazirliyi Bakı Şəhər Herontoloji Mərkəzinin fəaliyyəti haqqında söhbət açacağıq.

### DÜNYA ƏHALİSİ SÜRƏTLƏ YAŞLANIR...

Dünya əhalisinin təxminən 10-11 faizi 65 və daha yuxarı yaş qrupundadır. BMT-nin proqnozuna görə, 2050-ci ilə qədər dünya üzrə bu yaş qrupunda olan insanların sayı 1,6 milyarda çatacaq. Ölkəmiz də dünyada gedən bu prosesdən kənarda deyil. Azərbaycanda 2015-ci ildə 60-dan yuxarı yaşda olan insanların payı təxminən 9,5 faiz idisə, 2025-ci ildə bu rəqəm 15,5 faizə yüksəlib. Yuxarı yaş qrupunda olan əhalinin sayının artması onlara göstərilən qayğı və xidmət imkanlarının genişləndirilməsi tələbini aktuallaşdırır.

### BAKI ŞƏHƏR HERONTOLOJİ MƏRKƏZİ NECƏ YARANIB?

Mərkəzin sahəsi böyük deyil. İçəridə kifayət qədər yaşlı insan var ki, bu da tələbin çox olduğunu deməyə əsas verir. "Bakı Şəhər Herontoloji Mərkəzi" Publik Hüquqi Şəxsin direktor vəzifəsinin icraçısı Nailə Əhmədova fəaliyyətləri ilə bağlı ətraflı məlumat verir: "Bakı Şəhər Herontoloji Mərkəzi demoqrafik dəyişiklikləri, herontologiya və heriatriya sahəsində uzun illərin təcrübəsini nəzərə alaraq Səhiyyə Nazirliyi kollegiyasının qərarı ilə 2020-ci ildə "Sağlamlıq sahəsi" poliklinikasının əsasında yaradılıb. Məqsəd yaşlı insanlara daha ixtisaslaşmış və keyfiyyətli tibbi yardım göstərməkdir".

Nailə xanımın sözlərinə görə, dünya təcrübəsini öyrənib, Azərbaycanda da tətbiq etmək məqsədilə, mərkəzin həkimləri mütəmadi olaraq yerli və xarici konfranslarda, seminar və kurslarda iştirak edirlər.

Mərkəz müxtəlif qurumlarla birgə elmi araşdırmalar aparır, yaşlı insanları asudə vaxtlarını daha səmərəli keçirmələri üçün art-terapiya ilə məşğul olan qurumlara yönləndirir, maarifləndirmə işləri apararaq əhalinin sağlamlığının profilaktikasının və qorunmasının təşkilində iştirak edir.

Mərkəzin əsas fəaliyyəti vaxtından əvvəl qocalmanın profilaktikası, sağlam yaşlanma və herontoloji yaş dövrünün aktiv keçirilməsidir.

### YAŞLI İNSANLARI DAHA ÇOX NARAHAT EDƏN XƏSTƏLİKLƏR

Nailə xanım deyir ki, yaşlı insanlar daha çox ürək-qan-damar, həzm, sinir, endokrik, sidik-cinsiyyət, sümük-əzələ sistemi xəstəlikləri, görmə, eşitmə zəifliyi kimi patologiyalarla müraciət edirlər. Onun sözlərinə görə, müraciət üçün şəxslərdə xəstəliklərin olması mütləq deyil, profilaktik olaraq da müayinədən keçib, məsləhət ala bilərlər.

Müraciət edən pasiyentlərə terapevt, ehtiyac olduqda dar ixtisas həkimləri - kardioloq, nevropatoloq, endokrinoloq, uroloq, okulist, burun-boğaz-qulaq və s. həkim xidmətləri göstərilir. O cümlədən yaşlı insanlara heriatrın konsultasiyası keçirilir, laborator analizlər, EKQ və ultrasəs müayinəsi aparılır.

Mərkəzdə müayinədən keçib müvafiq müalicə almaq üçün vətəndaşlar şəxsiyyətini təsdiq edən sənədlə müraciət edə bilərlər. Bu, həm yaşlılara, həm də cavanlara aiddir.

### MÜRACİƏT EDƏNLƏR İLDƏN-İLƏ ARTSA DA...

Həmsöhbətimiz mərkəzə müraciət edənlərin sayının ildən-ilə artdığını deyir: "2020-ci il üçün müraciət sayı ümumi olaraq 1294 nəfər olub ki, onlardan 789 nəfəri təqaüdçü idi. 2025-ci ilin dekabr ayının əvvəlinə olan ümumi müraciət 2546 nəfər olub və onlardan 1644 nəfəri təqaüdçüdür".




Fotolar: Əjdər İbrahimov/Global Photostock

Mərkəz rəhbəri vurğulayır ki, yaşlı insanların sağlamlığı ilə məşğul olan həkim heriatrın işi təkcə xəstəliklərin müalicəsi deyil. O, pasiyentin ümumi halını qiymətləndirib, yaşla əlaqədar yaranan dəyişiklikləri, xroniki xəstəlikləri və onların bir-birinə təsirini nəzərə alır: "Məqsəd yaşlı insanların həyat keyfiyyətinin yaxşılaşdırılması və ömürlərinin uzadılmasıdır. Pasiyentin hansı şəraitdə yaşadığını, çalışdığını araşdırmaq, onu narahat edən amilləri aşkarlamaq, mümkün olduğu qədər mənfi amillərin aradan götürülməsini təmin etməkdir".

### ÖZÜNƏQULLUQ HƏVƏSLƏRİ ARTIB

Nailə xanımın sözlərinə görə, son zamanlar yaşlı insanlarda özünəqulluq həvəsi artıb: "Əvvəllər 60 yaş və üzəri pasiyentə onda bəzi dəyişikliklər olduğunu deyəndə, bunu yaşla əlaqələndirib heç bir şey etmək istəmirdisə, hazırda aktiv, sağlam və dolğun həyat yaşamaq istəyən yaşlı insanlarımız çoxalıb. Tənha yaşlı insanlarımız son zamanlar sosiallaşmağı, fiziki aktivliyi, səhhətinin mütəmadi yoxlanılmasını daha üstün tuturlar".



## Kişilər müayinə olunmaq istəmirlər

Nailə xanımın dediyinə görə, xanımlarla müqayisədə kişilər mərkəzə müraciət etməkdə o qədər də həvəsli deyillər: "Elə kişilər var ki, həyat yoldaşlarını gətirir müayinə etdirir, amma özləri müayinə olunmaq istəmirlər".

Qeyd edək ki, Herontoloji Mərkəz ambulator tipli müəssisədir. Burada stasionar müalicə mövcud deyil. Pasiyentlər yalnız mərkəzə gəlib, müayinələrdən keçib, müvafiq müalicələri qəbul edirlər. Kurs müalicələr də mərkəzdə keçirilir. Evdə tibbi xidmət təşkil edilmir.

### ONLARIN XOŞ ƏHVAL-RUHİYYƏSİ

Fürsətdən istifadə edib mərkəzə gələn yaşlı insanlardan bəziləri ilə söhbət edirik. Məlum olur ki, müayinə, idman üçün gələnlərlə yanaşı, ümumi xoş-əhval ruhiyyə sorağında olanlar da az deyil. Həmsöhbət olduğumuz Nigar İbrahimova bir müddət əvvəl insult keçirdiyini və əlini hərəkət etdirə bilmədiyini deyir: "Rəfiqələrim bu mərkəz barəsində məlumat verdilər. Gəldim və həkim nəzarəti altında idman hərəkətləri etməyə başladım. Qısa zamanda çox faydasını gördüm. Artıq əl-qolumu rahat işlədə bilirəm".

Burada idmanla məşğul olan Leyla Əliyeva da mərkəzə gəlməyin ona çox fayda verdiyini deyir: "Artıq neçə ildir ki, gəlirəm. Əlim-ayağım tutulurdu. Amma indi hamısı keçib. Hava yağışlı olsa da, gəlirəm. Evdə bu cür idman edə bilmirdim".

# “GLOBAL MEDİA GROUP”UN 55 ƏMƏKDAŞI TƏLTİF OLUNUB

Təltif olunanlar uzunmüddətli və səmərəli fəaliyyəti, peşəkarlığı, operativ və obyektiv informasiya təminatındakı xidmətləri, eləcə də Azərbaycan milli mətbuatının inkişafına verdikləri töhfələrə görə bu yüksək mükafata layiq görülüblər.




Azərbaycan milli mətbuatının yaranmasının 150 illiyi münasibətilə “Global Media Group”a daxil olan media subyektlərinin rəhbər və jurnalist heyətindən ümumilikdə 55 nəfər “Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Təltif olunan şəxslər uzunmüddətli və səmərəli fəaliyyəti, peşəkarlığı, operativ və obyektiv informasiya təminatındakı xidmətləri, eləcə də Azərbaycan milli mətbuatının inkişafına verdikləri töhfələrə görə bu yüksək mükafata layiq görülüblər.

### MİLLİ MƏTBUATA YÜKSƏK QİYMƏTİN BARİZ İFADƏSİ

Yubiley medalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın tarixi missiyasına, jurnalist əməyinə və medianın cəmiyyətin inkişafındakı mühüm roluna verdiyi yüksək qiymətin bariz ifadəsi olaraq, dövlət başçısının 20 fevral 2025-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş müvafiq qanunvericilik dəyişiklikləri əsasında təsis edilib.

Prezidentin imzaladığı bu fərman Azərbaycan milli mətbuatının 150 illik şərəfli yoluna dövlət səviyyəsində göstərilən xüsusi diqqət və qayğının, söz və informasiya azadlığının inkişafına verilən mühüm töhfənin növbəti təzahürüdür.

Qeyd edək ki, “Global Media Group” üzrə yubiley medalı ilə təltif olunan əməkdaşlar aşağıdakı media qurumlarını təmsil edirlər:

- Baku.TV - 10 nəfər;
- “Report” İnformasiya Agentliyi - 14 nəfər;
- Oxu.Az - 9 nəfər;
- Baku.ws - 5 nəfər;
- Caliber.az - 6 nəfər;
- Media.az - 1 nəfər;
- “Kaspi” qəzetinin Azərbaycan redaksiyası - 4 nəfər;
- “Kaspi” qəzetinin rus redaksiyası - 3 nəfər;
- Photostock.az foto agentliyi - 1 nəfər.









## “GLOBAL MEDİA GROUP”DAN PREZİDENTƏ TƏŞƏKKÜR

“Global Media Group” kollektivi göstərilən bu yüksək dövlət diqqəti və etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirir və bundan sonra da milli mətbuatın inkişafına, cəmiyyətin operativ və etibarlı informasiya ilə təmin olunmasına töhfə vermək istiqamətində fəaliyyətini qətiyyətlə davam etdirəcəyini bəyan edir.



## SOCAR yeni əməkdaşlıq memorandumu imzalayıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Kompleks qazma işləri” tresti (KQİT) ilə “Bahar Energy Operating Company” (BEOC) arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

“Report” KQİT-ə istinadən xəbər verir ki, sənəd iki şirkət arasında tərəfdaşlığın qurulmasını nəzərdə tutur. Memorandum çərçivəsində KQİT-in geniş qazma və texniki təcrübəsinin Xəzərin Azərbaycan sektorunda yerləşən “Bahar” və “Qum-dəniz” yataqlarında tətbiqi imkanları araşdırılacaq.

Məlumata görə, BEOC ilə birgə icra olunacaq layihələr hər iki şirkətin strateji hədəflərinə çatmasına əhəmiyyətli töhfə verəcək.

Xatırladaq ki, SOCAR və ABŞ-nin SLB şirkəti (keçmiş “Schlumberger”) 2025-ci ilin oktyabrında “Bahar” və “Qum-dəniz” yataqlarının yenidən işlənməsi üzrə tərəfdaşlıq barədə razılığa gəliblər. Razılaşma perspektivli hasilat zonalarının müəyyənləşdirilməsini, ətraflı rezervuar modelləşdirilməsinin hazırlanmasını, eləcə də erkən hasilat sxeminin (EPS) həyata keçirilməsi üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini əhatə edir.

SOCAR-ın məlumatına görə, layihə şirkətin neft hasilatının artırılması və yetkin dəniz yataqlarının istismar müddətinin uzadılması üzrə uzunmüddətli strategiyasında mühüm yer tutur.

Qeyd edək ki, SOCAR və “Bahar Energy Limited” 2009-cu ilin dekabrın 22-də “Bahar” və “Qum-dəniz” yataqlar bloku üzrə kəşfiyyat, reabilitasiya, işlənmə və hasilatın pay bölgüsü haqqında saziş imzalayıblar. Sazişə əsasən, layihədə “Bahar Energy Limited”in payı 80%, SOCAR-ın payı isə 20% təşkil edir.

Müqavilə 25 il müddətinə nəzərdə tutulub və daha beş il uzadılması mümkündür. İnvestisiya proqramının həcmi ilkin olaraq bir milyard ABŞ dolları həcmində qiymətləndirilir və bütün investisiyalar “Bahar Energy Limited” tərəfindən həyata keçiriləcək.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2570
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# "ŞPARQALKA"DAN TEXNOLOJİ VASİTƏLƏRƏ KEÇİD ERASI

Hazırda aktuallaşan problemlərdən biri də imtahanlarda texnoloji fırıldaqçılıqdır. Abituriyentlər qəbul imtahanlarında, tələbələr semestr imtahanlarında köməkçi vasitələrə - texnoloji cihazlara müraciət edirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Rəqəmsal dövrə qədəm qoyduqca təhsil və texnologiyanın kəsişməsi çoxalır. Ancaq bu, yeni imkanlarla yanaşı, çətinliklər də yaradır. Hazırda aktuallaşan belə problemlərdən biri də imtahanlarda texnoloji fırıldaqçılıqdır. Abituriyentlər qəbul imtahanlarında, tələbələr semestr imtahanlarında köməkçi vasitələrə - texnoloji cihazlara müraciət edirlər.

Əgər əvvəllər imtahanlarda "şparqalka"dan istifadə işə yarayırdısa, müasir dövrdə onları sürətlə texnoloji vasitələr əvəzləyir. Təəssüf ki, texnoloji əsaslı fırıldaqçılığın miqyası müəyyən bir akademik səviyyə və ya sahə ilə məhdudlaşmır. Bu, dünyanın hər yerində orta məktəblərdə, kolleclərdə və universitetlərdə geniş yayılıb. Hazırda dünyada imtahanlarda texnologiya əsaslı fırıldaqçılığı müəyyən etmək və qarşısını almaq, hamı üçün ədalətli və bərabər təhsil mühiti təmin etməkdən ötrü imkanlar araşdırılır.

Bu yaxınlarda bizim ölkəmizdə baş verən hadisə də cəmiyyəti şoka salıb. Bəs bu cür xoşagəlməz halların qarşısını almaq imkanları nə dərəcədə realdır?

### "ƏGƏR O ABİTURİYENTLƏR BİLSƏLƏR Kİ..."

Pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmovun sözlərinə görə, əvvəllər də imtahan proseslərində belə hallar baş verib: "İşbazlar həmişə olub və gələcəkdə də olacaq. Amma təbii ki, belə halların qarşısı mütləq alınmalıdır. Bunun üçün profilaktik tədbirlər görülməlidir. Dövlət İmtahan Mərkəzi ayrı-ayrı abituriyentlərin diqqətinə çatdırmalıdır ki, data bazasında onların bütün imtahan nəticələri yerləşdirilib. 11 il müddətində oxumayıb, yaxşı olmayan nəticələr göstərən biri qəbul imtahanlarında 500-600 bal toplayırsa, bu, təbii ki, şübhə doğuracaq. Nəticələr də dərhal yoxlanılacaq. Əgər abituriyentlər bilsələr ki, gələcəkdə belə hallara yol verənləri nə gözləyir, onda bu yola əl atmazlar. İmtahanlardan qabaq hər bir abituriyentə "İmtahan prosesində qeyri-qanuni hər hansı vasitədən istifadə edərsinizsə, bu, bizim tərəfimizdən aşkar olunacaq və ciddi şəkildə cəzalandırılacaqsınız" məzmununda SMS göndərilməlidir".

Professorun fikrincə, bu məzmunda məktəb direktorları ilə DİM rəhbərliyinin görüşünün keçirilməsi də yaxşı olar: "Məzunlar dərk etməlidirlər ki, bu yol uğurlu deyil. Cəmiyyəti də bu barədə məlumatlandırmaq lazımdır. İnsanlar anlamalıdır ki, bu, həmin abituriyentin, onun ailəsinin, bütövlükdə cəmiyyətin faciəsinə gətirib çıxara bilər". F.Rüstəmov hesab edir ki, bu cür saxtakarlıqla məşğul olanların ciddi cəzası olmalıdır: "Belə hadisəni ictimailəşdirmək lazımdır ki, valideynlər də nəticə çıxarsınlar. Saxta yoldan istifadə edən abituriyentlərə 3-5 il ali məktəblərə sənəd verməyə qadağa qoymaq lazımdır. Onlar cəzalanmalıdırlar ki, başqalarına dərs olsun. Abituriyentlər bilməlidirlər ki, bu gün diplom almaq şərt deyil. Diploma görə heç kəsi işə götürmürlər. Sabah universitetdə, işə düzəlmək istəyəndə yenidən imtahan verməlisən və onda da yalanın üzə çıxacaq. Ortada isə işbazlar qazanmış olacaq".

## "Bu cür hallar tələbələri həvəsdən salır"

"Fəaliyyətim dövründə bu məsələ həmişə aktual olub. Auditoriyalarda kənar köməyin olmamamsı üçün əlimizdən gələn bütün vasitələrdən istifadə edirik", - deyə ADA Universitetinin professoru Gülməmməd Məmmədov da mövzuya münasibət bildirdi. Onun fikrincə, bu, biliyin qiymətləndirilməsində ədalətin təmin olunması baxımından da vacib məsələdir: "Hansısa tələbə zəhmət çəkib oxuyursa, onu təqdir edirik, eyni zamanda imtahanı elə təşkil etməliyik ki, zəhmət çəkməyən, oxumayan tələbə hansısa yollarla qiymət ala bilməsin. Bu cür hallar tələbələri həvəsdən salır. Ədalət prinsipinin bu formada pozulmasını görəndə belə davranışlara meyilli olmayan tələbə də "bəlkə mən də belə edim", - deyə düşünə bilər".

## Vicdan, etika və etimad məsələsi

G.Məmmədovun fikrincə, nəzarətdən əlavə, gənclərlə nümunəvi söhbətlər də aparmaq lazımdır: "Mən semestr boyu tez-tez bu mövzuya qayıdıram. Bu, həm də etik məsələdir. Bunun inzibati tərəfi qanunlarla tənzimləmədirsə, digər tərəfi məsul şəxsin prinsiplərə, etika anlayışına münasibətidir. Qəbul imtahanlarında ədalət prinsipini birbaşa dövlət təmin etməlidir. Bu, dövlətin üzərinə düşən vacib öhdəliklərdən biridir. Digər tərəfdən, bu şəxsin vicdan, etika məsələsidir. Gələcəyimizin, cəmiyyətin imtahanlara olan etimad məsələsidir. Belə hallar adiləşsə, insanların inamı sarsıla bilər. Hər kəs, cəmiyyətin hər bir üzvü, xüsusən, təhsilin içərisində olan şəxslər bu cür həssas məsələdə məsuliyyətli davranmalıdırlar".

Professorun fikrincə, dövlətin aidiyyəti qurumları bu kimi halların qarşısını almaq üçün addımlar atır: "Biz də auditoriyalarda kənar köməyin olmaması üçün əlimizdən gələn bütün vasitələrdən istifadə edirik".




**Fotolar:** Firudin Səlimov-Sabir Məmmədov/Global Photostock

### "SİSTEMLİ MÜBARİZƏ APARILMALIDIR"

Tarix müəllimi Pərviz Ağalarov da hesab edir ki, qəbul imtahanlarına nəzarət gücləndirilməlidir: "İnformasiya texnologiyalarından istifadə edərək imtahana müdaxilələrin qarşısını yalnız dövlət səviyyəsində almaq mümkündür. Bununla bağlı xüsusi tədbirlər planı hazırlanmalıdır. Bu cür hallar təkcə təhsildə baş vermir. Biz bank kartlarından oğurluqlarla da tez-tez rastlaşırıq. Ona görə belə hallara qarşı sistemli mübarizə aparılmalıdır".

# GƏNCLƏRİ TƏHDİD EDƏN TƏHLÜKƏ

Ölkəmizdə gənclər və yeniyetmələr arasında elektron siqaretə maraq artıb. Ekspertlər bu halın gələcəkdə ciddi sağlamlıq risklərinə yol açacağı qənaətindədirlər.

SEVİNC ABBASOVA

Azərbaycanda elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qadağan olunur. Bununla bağlı "Tütün və tütün məmulatı haqqında" qanuna yeni maddə əlavə edilməsi təklif edilir.

Elektron siqaretlər "daha təhlükəsiz alternativ" kimi təqdim olunsa da, yeni elmi araşdırmalar onların zərərsiz olmadığını göstərir. ABŞ-nin Corciya Universitetinin alimləri siqaret və elektron siqaret istifadəsinin şəkəröncəsi və ikinci tip diabet riski ilə əlaqəsini araşdırıb. Araşdırmalar təsdiqləyir ki, elektron siqaret istifadəçilərində qısa müddət ərzində insulin müqaviməti və çəki artımı daha çox müşahidə olunub.

Hazırda dünyada 100 milyondan çox veyp istifadəçisi var. Onların 15 milyonu 13-15 yaşlı yeniyetmələrdir. Ümumdünya Səhiyyə Təşkilatının 2000-2024-cü illəri əhatə edən hesabatında vurğulanır ki, elektron siqaret istifadəçilərinin böyük əksəriyyəti yüksəkgəlirli ölkələrdə yaşayır.

Azərbaycanda bu sahədəki vəziyyət isə tam aydın deyil. Buna görə bir sıra vacib suallar ortaya çıxarır. Maraqlıdır, ölkəmizdə elektron siqaret istifadəçilərinin təxmini sayı məlumdurmu? Temp artırmı? Bu siqaretlərin ənənəvi siqaretlərdən hansı üstün və mənfi cəhətləri var?

**Dünyada elektron siqaret istifadəçilərinin sayı**

**100 milyon nəfər**

**13-15 yaşlılar**

**15 milyon nəfər**

## ELEKTRON SİQARETLƏRƏ MARAQ ARTIR

Dövlət Statistika Komitəsindən əldə etdiyimiz məlumatlara görə, Azərbaycanda siqaret çəkmə səviyyəsi hələ də yüksək olaraq qalır. 2023-cü ilin statistikasına əsasən, 15-19 yaş aralığında olanların 35,7 faizi hər gün, 64,3 faizi isə arabir siqaret çəkir. 20-44 yaş qrupunda hər gün siqaret çəkənlərin payı 94,3 faiz, arabir çəkənlərin payı 5,7 faiz olub. 45-64 yaş arasında bu göstəricilər müvafiq olaraq 97,6 və 2,4 faiz təşkil edib, 65 yaşdan yuxarı şəxslərin isə 97 faizi gündəlik, yalnız 3 faizi arabir çəkir. Tütün məmulatları üzrə bölgüyə baxıldıqda sənaye üsulu ilə istehsal edilmiş siqaretlərin istifadəsi 99,8 faiz, elektron siqaretlər 0,1 faiz təşkil edib. 20-44 yaş qrupunda siqar və siqarillodan 0,1 faiz, elektron siqaretlərdən 0,2 faiz istifadə edib.

2024-cü ilin statistikasına əsasən, ümumilikdə siqaret çəkənlərin 96,2 faizi hər gün, 3,8 faizi isə ara-sıra siqaret çəkir. Yaş qrupları üzrə təhlillər göstərir ki, 15-19 yaşlılar arasında bu göstərici müvafiq olaraq 97 faiz və 3 faizdir.

Tütün məmulatları üzrə bölgü 2024-cü ildə də əvvəlki tendensiyanı saxlayır. Siqaret çəkənlərin 99,8 faizi sənaye üsulu ilə istehsal edilmiş siqaretdən istifadə edir. Qəlyan, siqar və siqarillo istifadəçilərinin payı çox aşağıdır, cəmi 0,1 faiz. Elektron siqaret istifadəçilərinin payı ümumilikdə 0,1 faiz olsa da, gənc yaş qruplarında, xüsusilə 15-19 yaş arasında bu göstərici 0,3 faizdir ki, bu da elektron siqaretlərə marağın müəyyən dərəcədə artdığını göstərir.

## "YENİYETMƏLƏRDƏ AĞCİYƏRLƏRİN İNKİŞAFI LƏNGİYİR"

Pulmonoloq Əsəd Beydullayev bildirir ki, elektron siqaretlər son illər xüsusilə xanımlar və yeniyetmələr arasında populyarlıq qazanıb: "Elektron siqaretlər 2006-cı ildən satışa çıxıb. Lakin araşdırmalar göstərir ki, bu məhsullar uzunmüddətli istifadə üçün təhlükəlidir. Tibb dünyasında 2019-cu ildən etibarən tanınmış EVALİ (Elektron siqaret veyp məhsullarına bağlı ağciyər zədələnməsi) adlı xəstəlik diqqət çəkir. Bu xəstəlik elektron siqaret istifadəsi nəticəsində yaranır və özünü əsasən təngnəfəslik, yüksək hərarət, halsızlıq və ağciyər zədələnməsi ilə göstərir".

Pulmonoloq vurğulayır ki, elektron siqaret istifadəçilərində yalnız 90 gündən artıq istifadə belə EVALİ riskini əhəmiyyətli dərəcədə artırır: "Bu xüsusilə yeniyetmələr üçün təhlükəlidir. Çünki onların ağciyərləri hələ tam inkişaf etməyib".

Əsəd Beydullayev qeyd edir ki, siqareti tərgitmək istəyən şəxslər üçün elektron siqaret alternativi məqsədəuyğun deyil: "Məqsəd yalnız zərəri azaltmaq deyil, siqareti tamamilə tərgitməkdir. Çünki elektron siqaretlər də ciddi risklərə malikdir. Bu məhsullardan uzunmüddətli istifadə zamanı tənəffüs yollarında qıcıqlanma, bronxit və digər xroniki ağciyər problemlərinə səbəb ola bilər. Gənc istifadəçilərdə isə bu məhsullar ağciyərin inkişafını ləngidə və gələcəkdə daha ciddi sağlamlıq problemlərinə yol aça bilər".


Əsəd Beydullayev

## "MAARİFLƏNDİRMƏ İŞLƏRİNƏ EHTİYAC VAR"

"Sağlam Düşüncə" Gənclər Təşkilatının baş katibi Hüseyn Abdullayev isə bu istiqamətdə sosial maarifləndirmə işlərinin aparılmasını vacib sayır. Onun sözlərinə görə, hazırda gənclər arasında adi siqaretlərlə müqayisədə elektron siqaretlərə maraq daha yüksəkdir.

Bunun səbəbi uzunmüddətli istifadə zamanı daha az xərc tələb olunmasıdır: "Eyni zamanda, qoxusuz, iysiz, tullantısız olması, cəmiyyətdə "zərərsiz" imicinin formalaşması gənclərin diqqətini cəlb edir. Əslində isə elektron siqaret adi siqaretlər qədər təhlükəlidir.

Bu istiqamətdə sosial maarifləndirmə işlərinin aparılması vacibdir".



## ÜRƏK-DAMAR SİSTEMİ TƏHLÜKƏDƏ

Kardioloq Kənan Əhmədov deyir ki, elektron siqaretlər ürək-damar sistemi üçün ciddi risklər yaradır: "Bu siqaretlər tərkibində nikotin, propilen qlikol, gliserin və müxtəlif süni dadlandırıcılar ehtiva edir. Həmin maddələr uzun müddətli istifadə zamanı ürək-damar sistemi üçün ciddi risklər yarada bilər. Məsələn, nikotin qan təzyiqini yüksəldə, ürək ritminin pozulmasına səbəb ola, xolesterol balansını dəyişdirə və damarların elastikliyini azalda bilər. Bu isə nəticədə ürək xəstəlikləri, infarkt və insult riskini artırır. Eyni zamanda, elektron siqaretlər gənclər arasında asılılıq yaradan əsas faktorlardan biridir".


Kənan Əhmədov

Mütəxəssis vurğulayır ki, bu məhsulların ənənəvi siqaretlərdən az zərərli hesab olunması düşüncəsi yanlışdır: "Hazırkı tibbi araşdırmalar göstərir ki, onların uzunmüddətli təsirləri hələ tam öyrənilməyib və ürək-damar sistemi üçün potensial təhlükə daşıyır. Sağlamlığın qorunması baxımından ən doğru seçim həm elektron siqaretlərdən, həm də tütün məhsullarından uzaq qalmaqdır".

# QANI İLƏ TARİX YAZAN QƏHRƏMAN



Birinci Qarabağ müharibəsi şəhidi Natiq Abdullayev sadə bir ailənin sadə xasiyyətli, amma qeyrəti ilə seçilən övladı idi. Natiqin xatirəsi doğulub boya-başa çatdığı İsmayıllı rayonunda, o cümlədən onu sevənlərin qəlbində daim əziz tutulur, hörmətlə yad edilir.

ƏRTURAN İSMAYIL

Tarixin yaddaşına həkk olunan qəhrəmanlarımız zaman keçdikcə əfsanəyə çevrilir. Onların keçdiyi döyüş yolu, göstərdikləri şücaət, fədakarlıq və Vətən eşqi nəsildən-nəslə ötürülən qəhrəmanlıq dastanıdır. Vətən bizim üçün təkcə torpaq deyil, həm də namusumuz, qürurumuz, müqəddəs and yerimizdir. Bu müqəddəs amal uğrunda canını fəda edən hər bir şəhidimiz xalqımızın yaddaşında ən uca zirvəyə yüksəlir.

### "BİZ VƏTƏNİ MÜDAFİƏ EDİRİK"

Qarabağ torpaqları illərlə düşmən tapdağında inləyərkən, Azərbaycanın yüzlərlə igid oğlu könüllü olaraq döyüşə atıldı. 1990-cı illərdə sovet imperiyasının dağılması ilə müstəqilliyini bərpa etmiş ölkəmizdə yaranmış siyasi boşluq və çoxsaylı çətinliklərə baxmayaraq, gənclərimiz Vətənin müdafiəsinə qalxmağı özlərinə şərəf bildilər. Silah-sursatın azlığı, nizami ordunun hələ formalaşmaması, iqtisadi çətinliklər onları qorxutmadı. Onlar həmin vaxt bir amal uğrunda birləşdilər: "Biz Vətəni müdafiə edirik və bu yolda hər şeyə hazırıq".

Belə igidlərdən biri də Natiq Yavər oğlu Abdullayev idi. O, sadə bir ailənin sadə xasiyyətli, amma qeyrəti ilə seçilən övladı idi. Onu tanıyanların dediyi kimi, Natiqin qəlbi Vətən eşqi ilə döyünürdü. O, sözün əsl mənasında Vətən fədaisi idi.

### ÇƏTİN GÜNLƏRƏ TƏSADÜF EDƏN DÖNÜŞ

Natiq Abdullayev 23 dekabr 1970-ci ildə İsmayıllı rayonunda dünyaya göz açmışdı. 1977-ci ildə 3 saylı orta məktəbdə birinci sinfə qədəm qoymuş, 1988-ci ildə oranı bitirmişdi. Məktəbi qurtardığı illərdə Qarabağda artıq ermənilərin təxribatları, mitinqləri başlamışdı. Ermənistan dövlətinin ayrı-seçkiliyi, soydaşlarımıza qarşı fiziki-mənəvi terroru nəticəsində orada yaşayan azərbaycanlılar deportasiya olunur, ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalırdılar. Həmin dövrdə Natiq Uzaq Şərqdə hərbi xidmətə yollanmışdı. O, hərbi xidmətini başa vurub iki ildən sonra - 1990-cı ildə Vətənə qayıtmışdı.



Bu dönüş çətin günlərə təsadüf edirdi. Sovet totalitar rejimi azadlıq tələb edən azərbaycanlıları cəzalandırmaq üçün əliyalın, dinc insanların üzərinə ağır zirehli texnika yeritmiş, onlara qarşı silah tətbiq etmiş, böyük cinayətlər törətmişdi. Xalqımızın qan yaddaşına 20 Yanvar faciəsi kimi daxil olmuş bu hadisələr Natiqə ciddi təsir etmişdi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda bəşəriyyət əleyhinə cinayət – soyqırımı törətməsi isə Natiqi könüllü olaraq ordu sıralarına qoşulmağa, ərazi bütövlüyümüzün müdafiəsinə qalxmağa məcbur etmişdi.

### 24 YAŞINDA ŞƏHİD OLDU

Natiq Abdullayev bir çox hərbi əməliyyatlarda, o cümlədən Füzulinin yaşayış məntəqələrinin işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib. O, fiziki cəhətdən güclü, döyüş bacarığı olan, idmançı bir gənc olub. Hərbi əməliyyatlarda cəsarəti və soyuqqanlılığı ilə seçilib, döyüş tapşırıqlarını məsuliyyətlə yerinə yetirib. Dostları deyir ki, Natiqin gözlərində həm doğma torpaqları düşməndən azad etmək amalı, həm də şəhid olan dostlarının qisasını almaq qətiyyəti var idi.

16 aprel 1994-cü ildə Füzulinin Şükürbəyli kəndi uğrunda gedən döyüşlərdə Natiq Abdullayev ağır yaralanıb. O, həyatının ən gözəl çağında ən uca zirvəyə - şəhidlik məqamına yüksəlib. Bu zaman onun cəmi 24 yaşı olub.



## ONLARIN FƏDAKARLIĞI YADDAŞIMIZDA YAŞAYIR

Qeyd etmək yerinə düşər ki, Birinci Qarabağ müharibəsində hərbi texnika və silah-sursat çatışmazlığı, nizami ordunun olmaması döyüşləri çox vaxt qeyri-bərabər vəziyyətə salırdı. Buna baxmayaraq, Natiq və onun kimi igidlərimiz geri addım atmır, son nəfəsədək Vətəni qorumağa çalışırdılar. Onların fədakarlığı bu gün də dilimizdə, yaddaşımızda, ürəyimizdə yaşayır.

Həmin dövrlərdə Natiqin döyüş yoldaşları dəfələrlə düşməni geri çəkilməyə məcbur ediblər. Onlar torpaqlarımızı işğaldan azad etməyə can atıb, şəhid verəndə belə sarsılmayıblar. Əgər Natiq və o dövrün qeyrətli oğulları həyatda olsaydı, şübhəsiz, o günün qələbəsini də görməyi ən böyük arzu kimi özlərində daşıyardılar. Lakin tale belə yazmışdı.

2020-ci ilin 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər onların da qisası, onların da arzularının həyata keçməsi idi. 44 günlük Vətən müharibəsində döyüşən əsgərlərimiz Birinci Qarabağ savaşında canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda fəda edən şəhidlərimizin yarımçıq qalmış arzularını reallaşdırdılar. Bu gün onların ruhları rahatdır. Bu gün biz başımızı dik tuta bilirik.

### XALQIN ŞƏHİDİNƏ OLAN EHTİRAMININ KİÇİK BİR İFADƏSİ

Şəhid Natiq Abdullayevin doğulduğu İsmayıllı rayonunda onun adına küçə verilib, təhsil aldığı İsmayıllı şəhər 3 saylı orta məktəbdə xatirə lövhəsi qoyulub. Bu, xalqın şəhidinə olan ehtiramının kiçik bir ifadəsidir. Natiq Abdullayev Qarabağın azad olunduğunu fiziki olaraq görə bilməsə də, əminliklə demək olar ki, onun ruhu Zəfər yolunda əsgərlərimizlə bərabər addımlayıb.

23 dekabr Şəhid Natiq Abdullayevin doğum günüdür. Həyatda olsaydı 55 yaşını qeyd edəcəkdi. Anası Solmaz xanımın və onu tanıyan hər kəsin yaddaşında Natiq həmişə gülərüz, zarafatcıl və canıyanan bir oğul kimi qalacaq. Bütün şəhid valideynləri kimi Solmaz xanım da Qarabağın düşmən işğalından azad olunmasının qürurunu yaşayır. Bu gün biz Natiqin və bütün şəhidlərimizin xatirəsi qarşısında baş əyirik. Onların borcunu heç nə ilə ödəmək olmaz. Qanı ilə tarix yazan qəhrəmanlar unudulmur və unudulmayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

KAHI XARİCDƏN HƏM TOXUM, HƏM DƏ MƏHSUL ŞƏKLİNDƏ GƏTİRİLİR

# ALMAN KAHISI BAZARA NiYƏ QAYITDI?

Səkkiz ildən sonra Almaniyadan yenidən kahı idxalına başlanılıb. İdxalın əsas səbəbi qış aylarında yaranan çatışmazlıqdır. Mütəxəssislər alman kahısının daha çox restoranlar üçün nəzərdə tutulduğunu deyirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycana xarici ölkələrdən 901,4 min ABŞ dolları dəyərində 1 268,8 ton kahı gətirilib. Bu, 2024-cü ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 24 faiz, kəmiyyət olaraq, 22 faiz çoxdur. Hesabat dövründə Azərbaycan İrandan 894,7 min ABŞ dolları dəyərində (bir il əvvəlki göstəricidən 24% çox) 1 268,1 ton (+23%), İspaniyadan 5 min ABŞ dolları dəyərində 0,5 ton (bir il əvvəl tədarük olmayıb), Niderlanddan 0,9 min ABŞ dolları dəyərində 0,1 ton (bir il əvvəl tədarük olmayıb), İtaliyadan 0,35 min ABŞ dolları dəyərində 0,02 ton (bir il əvvəl tədarük olmayıb), Birləşmiş Ərəb Əmirliklərindən 0,2 min ABŞ dolları dəyərində 0,03 ton (1 il əvvəl tədarük olmayıb) məhsul alıb.

Azərbaycan səkkiz il beş aylıq fasilənin ardından Almaniyadan da kahı tədarükünü (0,15 min ABŞ dolları dəyərində 0,01 ton) bərpa edib.

Maraqlıdır, Azərbaycan kahıya olan tələbatını niyə yerli istehsal hesabına təmin edə bilmir? Bəlkə xaricdən gətirilən kahının başqa fərqli xüsusiyyətləri var?

### “SON İLLƏRDƏ KAHIYA TƏLƏBAT XEYLİ ARTIB”

Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Elmar Allahverdiyevin sözlərinə görə, ölkəmizdə kahıya tələbat son illərdə xeyli artıb: “Kahıdan xüsusilə salatlarda istifadə olunur. Kahının tərkibi vitaminlərlə kifayət qədər zəngindir. Bu səbəbdən tələbat çoxdur. Biz də kahılar üzərində tədqiqatlar aparırıq. Gələcəkdə yeni kahı sortları təqdim edəcəyik. Bu, yaqin ki, yeni ildə baş tutacaq”.

E.Allahverdiyev bildirdi ki, idxal mövsümlə əlaqədardır: “Bizdə havalar soyuq olanda, məsələn, qışda, kahı idxal etdiyimiz ölkələrdə havalar isti olur. Kahı mülayim iqlim qurşaqlarında becərilir deyə, həmin dövrdə həmin ölkələrdən alıb Azərbaycana gətiririk. Gətirilən kahıların hamısı istehlak üçündür”.

### “BU MƏHSULU DAHA ÇOX RESTORANLAR İSTİFADƏ EDİR”

Kahı istehsalı ilə məşğul olan Bəxtiyar Quliyev isə deyir ki, bu məhsulu əsasən restoranlar istifadə edir: “Kahının ən çox istifadə olunan növü “aysberq” adlanır. Kələm formasındadır. İdxal edildikdə də ölkəyə xaricdən ən çox bu növ gətirilir. Bu məhsula gündəlik tələbat 10 tona yaxındır. Digər növ adi kahıdır. Salatların altına qoyulur. “Batavia kahısı” adlanır. Başqa bir növü qırmızı kahıdır. “Lollo Rosso” adlanır. “Kos romaine” deyilən növ də var. Bu, “sezar” salatı hazırlanarkən istifadə olunur. Dadı bir az acıdır. Roka deyilən bitki də kahı növünə aiddir. İtalyan və türk rokası olaraq ayrılır. Bütün bu növlərin hamısını istehsal edə bilirik. Amma istehsal mövsüm üzrə olur. Bu məhsula istilik də vermək olmur. Məsələn, hazırda Türkan kəndində “aysberq” əkirik. “Batavia” və “Lollo Rosso” il boyu mövcud olur. Ona görə onları xaricdən gətirmirik”.



Elmar Allahverdiyev

### “YERLİ MƏHSUL İKİ DƏFƏ UCUZDUR”

B.Quliyev deyir ki, xaricdən kahı həm toxum, həm məhsul şəklində gətirilir: “Məhsul olmayanda, çətin tapılanda, daxili tələbatı ödəyə bilmədikdə xaricdən gətiririk. Ölkəmizə kahı əsasən İrandan gəlir. Niderland, Almaniyadan da idxal olunur. Toxum kimi də gətirilib, əkilir. İdxal edilən kahı ilə yerli kahı arasında ciddi bir fərq olmur. Dadları da fərqlənmir. Çünki sortları eynidir. Amma yerli istehsal daha etibarlı hesab edilir. Qiymətə gəlincə, hazırda bazarda yerli məhsul gətirilmədən iki dəfə ucuzdur”.

## “ALMANİYADAN TƏDARÜK DAİMİ VƏ MÜTƏMADİ BİR İDXAL DEYİL”

İqtisadçı-ekspert Akif Nəsirlinin sözlərinə görə, uzun illərdən sonra yenidən alman kahısına yönəlməyimizin səbəbləri var: “Alman kahısı çox vaxt daha sərt və uzunömürlü olur, yəni soyuducuda daha uzun müddət saxlanıla bilir. Dad və toxuması yerli kahılardan fərqlənir, bəzi növlər daha yüngül acı və ya qıvrım yarpaqlıdır. Ticarət standartlarına uyğun yetişdirildiyi üçün görünüşü və keyfiyyəti daha sabitdir, bu da supermarket və restoran tələbləri üçün önəmlidir. Alman kahısı xüsusilə keyfiyyət və saxlanma müddəti ilə seçilir və idxal həcmi çox kiçik olduğundan istehlak üçün nəzərdə tutulur”.

A.Nəsirlinin fikrincə, İran kahısı daimi idxal edilsə də, alman kahısının idxalı yenidən dayandırıla bilər: “Almaniyadan gətirilən kahı həcmi çox kiçikdir (0,01 ton, 0,15 min ABŞ dolları). Toxumçuluq məqsədli idxal adətən daha böyük həcmlərdə və xüsusi qeyd ilə həyata keçirilir.



Akif Nəsirli

Almaniyadan tədarük 8 il beş aylıq fasilədən sonra bərpa olunub, yəni bu, daimi və mütəmadi bir idxal deyil, daha çox xüsusi sifariş və ya tələbat əsasında baş verib. İran və digər ölkələrdən isə idxal daha kütləvi və mütəmadi xarakter daşıyır”.

Beləliklə, Azərbaycanda kahı istehsalı mövcud olsa da, mövsümi amillər, yüksək gündəlik tələbat və bəzi növlərin qış aylarında yetişdirilməsinin mümkün olmaması idxalı qaçılmaz edir. Almaniyadan gətirilən kahı isə kütləvi bazar üçün deyil, əsasən restoran və xüsusi istehlak seqmenti üçün nəzərdə tutulur.

ƏKSƏRİYYƏTİNİN NƏ TİBBİ TƏHSİLİ, NƏ DƏ KLİNİK TƏCRÜBƏSİ VAR, AMMA MƏSLƏHƏTLƏR VERİRLƏR

# SOSİAL ŞƏBƏKƏLƏRDƏ TİBBİ MƏSLƏHƏT DALĞASI

**Tibbi təhsili və klinik təcrübəsi olmayan blogerlərin tibbi məzmuna üz tutması ciddi fəsadlar verə bilər. Blogerlik yalnız maarifləndirmə, mexanizmlərin açıqlanması ilə məhdudlaşmalıdır. Bloger heç vaxt “bu dərmanı iç”, “bu proseduru et” kimi göstəriş verməməlidir.**



XANIM AYDIN

Son illərdə Azərbaycanda və dünyada sosial şəbəkələrdə blogerlərin tibbi məsləhətlər verməsi halları artıb. Milyonlarla izləyicisi olan bu şəxslər özlərini “sağlamlıq eksperti” kimi təqdim edir, tibbi terminlərlə danışır, səhiyyə ilə bağlı videolar hazırlayırlar. Lakin onların əksəriyyətinin nə tibbi təhsili, nə də klinik təcrübəsi var. Bu isə həm cəmiyyət, həm də səhiyyə sistemi üçün ciddi təhlükələr yaradır. Blogerlərin tibbi məzmuna üz tutmasının əsas səbəbi sadədir: populyarlıq, gəlir və təsir gücü. Sağlamlıq mövzusu geniş kütlənin diqqətini çəkdiyi üçün izləyici toplamaq, reklam almaq, şəxsi brend qurmaq daha asandır.

### “QEYRİ-PEŞƏKAR MÜDAXİLƏLƏR XƏSTƏLİYİN KLİNİK MƏNZƏRƏSİNİ DƏYİŞİR”

Azərbaycan Tibb Universitetinin I Müalicə-Profilaktika fakültəsinin dekanı, dermatovenoroloq Elşad Novruzov bildirir ki, dermatologiya sahəsində hazırda qeyri-peşəkar müdaxilələr həddindən artıq çoxdur. Həm blogerlər, həm də apteklərdə çalışan əczaçılar xəstələrə dermatoloji məsləhət verirlər və bunun fəsadları aşkar şəkildə özünü göstərir: “Məsləhət görülən kremlər ya mövcud olan xəstəliyə kömək etmir, ya da şikayətlərdə müvəqqəti azalmaya gətirir. Yəni ən yaxşı halda simptomları aradan qaldırır. Bu kremlərin məqsədi yalnız həmin kəskin an üçün vəziyyəti nəzarətə almaqdır. Lakin bu, müalicə deyil. Belə qeyri-peşəkar müdaxilələr xəstəliyin klinik mənzərəsini dəyişir. Nəticədə həkimin diaqnoz qoyması çətinləşir. Qeyd etdiyim yalnız bir xəstəlik üzərində nümunədir. Ən çox rast gəlinən hallardan biri saçda kəpəklə bağlı verilən yanlış məsləhətlərdir. Sabun, müxtəlif mazlar və qarışımlar tövsiyə edirlər. Halbuki kəpəyin yaranma səbəbləri müxtəlif ola bilər. Onların hər birinin müalicəsi fərqlidir. Ümumi məsləhətlə bütün halları müalicə etmək olmaz”.

Həkim qeyd edir ki, problemin əsas həlli insanlar arasında düzgün tibbi düşüncə tərzinin formalaşdırılmasıdır. Hər sahənin öz mütəxəssisi var və icbari tibbi sığorta vasitəsilə hər kəs həkimə müraciət edə bilər. Buna baxmayaraq, insanlar yenə də blogerlərə daha çox etibar edirlər: “Sosial şəbəkələrdə qeyri-etik paylaşımlara görə xəbərdarlıqlar olunub. Yaxşı olar ki, bu cür xəbərdarlıq tibbi məsləhətlər verən blogerlərə də edilsin. Nəzarətin gücləndirilməsi və zəruri hallarda cərimələrin tətbiqi vacibdir”.



Elşad Novruzov

## “TİBBİ ƏSAS DAŞIMAYAN TÖVSİYƏLƏR CİDDİ FƏSADLARA SƏBƏB OLUR”

Həkim-terapevt Məlahət Qədirova da qeyd edir ki, sosial şəbəkələrdə tibbi savadı olmayan, özlərini məsləhətçi kimi təqdim edən blogerlərin sayı artıb: “Onlar dərmanların şampuna qatılması, təsdiqlənməmiş ampul və qarışıqlardan istifadə, müxtəlif bitkilərin qaynadılıb içilməsi, arıqlama preparatlarının özbaşına qəbul edilməsi kimi təhlükəli “məsləhətlər” yayırlar. Bu tövsiyələrin heç biri elmi və tibbi əsas daşımır, nəzarətsiz tətbiqi isə çox ciddi fəsadlara səbəb ola bilər. İnsanlar sosial şəbəkədə gördüklərinə inanıb sınayır, lakin nəticədə dəri yanıqları, allergik reaksiyalar, hormonal pozulmalar və s. kimi mənfi nəticələrlə üzləşirlər”.



Məlahət Qədirova

Mütəxəssis bildirir ki, tibb bilik, təhsil və məsuliyyət tələb edən sahədir. Hər xəstənin problemi də fərdi yanaşma tələb edir. “Tövsiyəm budur ki, insanlar hər hansı simptom və ya narahatlıq olduqda, düzgün diaqnoz və müalicə üçün mütləq şəkildə ixtisaslı həkimə müraciət etsinlər”, - deyə terapevt qeyd edib.

## “BURADA SÖHBƏT İNSAN SAĞLAMLIĞINDAN GEDİR”




AzVision.az saytının baş redaktoru Vüsal Məmmədov bildirir ki, xarici sosial şəbəkə səhifələrini də tez-tez izləyir. Orada həkimliklə blogerliyin sərhədləri bizdən fərqli olaraq daha dəqiq müəyyən edilir: “Düzdür, həmin ölkələrdə də bu sərhədləri pozanlar var, lakin əksəriyyət bu prinsipi qorumağa çalışır. Onlar tibbi mövzuların mexanizmini izah edir, lakin müalicə hissəsinə keçmirlər. Məsələn, piylənmə bu gün aktual mövzudur. Xarici blogerlər piylənmənin bədəndə necə yaranmasını, hansı preparatların hansı təsirləri göstərə biləcəyini və s. izah edirlər. Amma heç vaxt “filan dərmanı qəbul edin və arıqlayın” demirlər. Əksinə, bildirirlər ki, buna ixtiyarları yoxdur və insanları müvafiq mütəxəssisə yönləndirirlər. Yəni blogerlik yalnız maarifləndirmə, mexanizmlərin açıqlanması ilə məhdudlaşmalıdır. Bloger heç vaxt “bu dərmanı iç”, “bu proseduru et” kimi göstəriş verə bilməz. Bunun üçün həkimlik lisenziyası olmalıdır. Lisenziyanın olmaması həm hüquqi, həm də mənəvi məsuliyyət yaratmalıdır. Bloger anlamalıdır ki, burada söhbət insan sağlamlığından gedir. Mənəvi tərəfləri başa düşmürlərsə, aidiyyəti orqanlar onlara hüquqi məsuliyyəti göstərməlidir. Bir neçə nəfərin cəzalandırılması digərləri üçün də dərs ola bilər”.

Baş redaktorun sözlərinə görə, bəzi blogerlər məsuliyyətdən yayınmaq üçün bioloji aktiv əlavələr – vitaminlər, minerallar və yağlar məsləhət görürlər. Bu məhsullar market və apteklərdə reseptsiz satıldığı üçün onların tövsiyəsi hüquqi məsuliyyət yaratmır. Lakin bu, insanları artıq xərcə sala bilər: “Məsələn, əgər xəstə analiz veribsə və D vitamini çatışmazlığı aşkarlanıbsa, həkim həmin çatışmazlığa uyğun dozada vitamin təyin edir və bu, ona real fayda verir. Amma analizsiz, özbaşına D vitamini qəbul edən insan üçün bunun sadəcə pul itkisindən başqa heç bir faydası olmaya bilər”.

V.Məmmədovun sözlərinə görə, insanlar blogerlərə kor-koranə inanmaq əvəzinə, sağlam düşüncəli olmalı və həkimə müraciət etməlidirlər.



Vüsal Məmmədov

**Foto:** Tapdıq Abdullayev
Global Photostock

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
20 DEKABR ŞƏNBƏ 2025
www.kaspi.az

Domeniko Tedeskonun rəhbərliyi altında "Fənərbağça" daha möhkəm və iddialı görünür. Komanda ardıcıl 15 oyundur məğlubiyyət üzü görmür.

# KÜLLƏRİNDƏN DOĞULAN "FƏNƏRBAĞÇA"



Türkiyə Super Liqasında son illərin ən gərgin çempionluq mübarizələrindən biri davam edir. Lider "Qalatasaray"a "Fənərbağça" və "Trabzonspor" müqavimət göstərir. "Sarı-qırmızılılar"ın 39 xalı varsa, "bülbüllər" cəmi üç xal geridədirlər. Qara dəniz təmsilçisi isə 35 xala malikdir. Bu yazıda mövsümün əvvəlindəki çalxantılı dövrdən sonra toparlanmağı bacaran və liqanın yeganə məğlubiyyətsiz komandası "Fənərbağça"dan bəhs edəcəyik.

## DƏYİŞİKLİKLƏ BAŞLAYAN MÖVSÜM

Joze Mourinyonun rəhbərliyi altında Çempionlar Liqasının təsnifat mərhələsində iştirak edən "Fənərbağça" burada əvvəlcə Niderland "Feyenord"unu mübarizədən kənarlaşdırsa da, "Benfika" səddini aşa bilmədi. Böyük hədəflərə malik klub rəhbərliyi ÇL-dəki uğursuzluğu baş məşqçiyə bağışlamadı. Mourinyo postundan uzaqlaşdırıldı. Mourinyonu onun stilinə yaxın məşqçi əvəzlədi. Domeniko Tedesko İstanbul nəhənginin "sükanı arxası"na gətirildi.

## KİMDİR TEDESKO?

İtalyanəsilli almaniyalı Domeniko Tedesko məşqçiliyə çox gənc – 32 yaşda "Ersgebirge" klubunda başlayıb. Tezliklə böyük klubların diqqətini çəkən mütəxəssis 2017-ci ildə başına gətirildiyi "Şalke"ni Almaniya Bundesliqasında gümüş mükafatçı etməyi bacardı. Bundan sonra onun daha böyük klublara keçəcəyi gözlənilsə də, 2019-cu ildə çalışdırıcı Moskva "Spartak"ının baş məşqçisi təyin olundu. Rusiyadakı fəaliyyəti paytaxt təmsilçisinin yenidən çempionluq yarışına qoşulması ilə nəticələndi. Koronavirus pandemiyası səbəbilə Tedesko 2021-ci ildə "Spartak"ı tərk edib ölkəsinə qayıtdı: bu dəfə "Leypsiq"in "sükançı"sı kimi. Burada isə o, Almaniya kubokunu qazanmağı bacardı. Lakin növbəti mövsüm uğursuz nəticələrdən sonra komandadan göndərildi. Olduqca potensiallı məşqçi kimi dəyərləndirilsə də, Tedesko heç bir yerdə uzun müddət qalmır və bacarıqlarını tam göstərə bilmirdi. "Leypsiq"in ardınca çalışdırıcı Belçika milli komandasının baş məşqçisi təyin olundu. Lakin orada işləri gözlənilən kimi getmədi.

Bu ilin sentyabrında Tedesko yenidən klub futboluna qayıtdı. "Fənərbağça"nın Mourinyodan sonra məhz onu seçməsi azarkeşlər arasında müəyyən suallara səbəb olmuşdu. Çünki mütəxəssis həqiqi mənada heç vaxt bu qədər iddialı komandanı çalışdırmamışdı. Amma mövsümün geridə qalan hissəsində göstərilən performans Domeniko seçimində klub rəhbərliyinin yanılmadığını göstərir.

## Mourinyonun formalaşdırdığı komanda ilə oynayır, amma...

Mourinyo dövründə böyük transferlər edilsə də, "Fənərbağça" heç vaxt azarkeşlərin tam razı qaldığı oyunu göstərmirdi. Xüsusilə, "Benfika"ya qarşı cavab oyununun son 20 dəqiqəsində tamamilə çökmüş və nə istədiyini bilməyən bir komanda var idi meydanda.

Tedesko Mourinyonun formalaşdırdığı komanda ilə oynayır. Amma futbolçuların performansı tamamilə dəyişib. "Fənərbağça" Domenikonun rəhbərliyi altında sanki küllərindən doğulur. 40 yaşlı mütəxəssis son illərin dəb ifadələrindən olan "notbuk məşqçiləri" kateqoriyasına aiddir. O, "Fənərbağça"da da bu elmi yanaşmanı tətbiq edir. Komandada əsas diqqətçəkən məqamlardan biri fiziki gücün artmasıdır. Tedesko bütün futbolçuların fiziki göstəricilərini və nə qədər oynamağa hazır olduqlarını tam araşdırıb. Alman mütəxəssis komandasından yüksək pressinq tələb edir. Lakin bu, kortəbii deyil, konkret detallara əsaslanan təzyiqdir. "Fənərbağça" pressinqi rəqibin zəifliklərı üzərində qurur, bu, topun meydanın rəqibə aid hissəsində ələ keçirilməsini asanlaşdırır, futbolçuların lazımsız güc sərf etməsinə mane olur.

Tedeskonun rəhbərliyi altında "Fənərbağça" uzaqdan zərbələr və standart vəziyyətlərə xüsusi diqqət edir. Beləliklə, "Fənərbağça" Super Liqada meydanın rəqibə aid zonasında ən çox top ələ keçirən, sahibsiz toplara ən çox yiyələnən, standart vəziyyətlərdən ən çox fərqlənən komandadır. Komanda müdafiə xəttində də olduqca etibarlıdır. "Fənərbağça" rəqiblərinə ən az qol şansı verən kollektivdir.

Tedesko dövründəki ən ciddi çatışmazlıq komandanın oyuna istədiyi kimi başlaya bilməməsidir. Komanda bir neçə dəfə ilk yarım saatda hesabda geri düşüb. Lakin müsbət məqam sonradan "bülbüllər"in xarakter göstərməyi bacarmasıdır.

## Çempionluq nə qədər realdır?

Tedeskonun rəhbərliyi altında "Fənərbağça" daha möhkəm və iddialı görünür. Komanda ardıcıl 15 oyundur, məğlubiyyət üzü görmür. Düzdür, bu qarşılaşmalarda heç-heçələr kifayət qədərdir və bu da bəzi məqamlarda "Fənərbağça"nın qapanan rəqiblərə qarşı effektiv ola bilməməsinin göstəricisidir. Lakin istənilən halda, xal qazanmaq uduzmaqdan daha yaxşıdır və hələ komandanın yeni üsluba uyğunlaşma mərhələsində olduğu nəzərə alınsa, bu da normal qarşılanmalıdır. Hələlik çempionluqdan danışmaq üçün çox erkəndir. Mövsümün böyük hissəsi irəlidədir, komandanın qarşısında "Qalatasaray" kimi güclü rəqib var. "Fənərbağça"nın Super Liqada nəyə nail olacağı sual altındadır. Lakin bu mövsüm asan təslim olmayacağı aydın görünür. Avropa Liqasında da işlər yolundadır. İstanbul təmsilçisi böyük ölçüdə pley-offu təmin edib. Qış fasiləsində olacaq transferlər və hazırlıq prosesi komandanın yekun nəticəsində həlledici olacaq.